QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 017 (6217) 29 yanvar 2021-ci il 2020-ci il. Qiyməti 40 qəpik "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Azərbaycanda məktəblərin tikintisi və əsaslı təmiri dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev Sabunçu və Suraxanı rayonlarında yenidən tikilən məktəblərdə yaradılan şəraitlə tanış olub*



Bax 2

## YAP "Vahid Rusiya" Partiyasına etiraz məktubu ünvanlayıb

Yeni Azərbaycan Partiyası Rusiya Dövlət Dumasının üzvü V. Milonovun Azərbaycana qarşı qərəzli çıxışları ilə əlaqədar "Vahid Rusiya" (Edinaə Rossiə) Partiyasına etiraz məktubu ünvanlayıb. SİA-nın verdiyi məlumata görə, məktubda deyilir: "Bu günlərdə Rusiya Federasiyasının Dövlət Dumasının "Vahid Rusiya" Partiyasından olan üzvü Vitaliy Milonov...

Bax 3

## ADA Universiteti ilə Medianın İnkişafı Agentliyinin birgə keçirdiyi seminarların ilk mərhələsi başa çatıb

Bax 4



Dövlətimizin başçısı İlham Əliyevin Fərmanı ilə yaradılan Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin birgə təşkil etdiyi "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusundakı seminarların ilk mərhələsi başa çatıb. ADA Universitetindən AZƏRTAC-a bildiriblər ki, yanvarın...

## Xankəndindən gələn siqnallar: atəşkəsin pozulması qədər təhlükəlidir!



Artıq bir neçə müddətdir ki, separatçı quldurların və terrorçu qalıqlarının sığındıqları sonuncu platsdarm mərkəzi - Xankəndindən istər-istəməz qıcıqlar yaradan, hətta açıq-aşkar meydanoxuma təsiri bağışlayan, o cümlədən, təxribatçılıq...

Bax 6

## Qarabağa yeni həyatın gəlməsi istiqamətində daha bir addım



2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən II Qarabağ müharibəsi müzəffər Azərbaycan ordusunun möhtəşəm qələbəsi ilə başa çatdı. Nəticədə Azərbaycan xalqı düşmən üzərində çaldığı böyük Zəfərlə öz ərazilərini...

Bax 11

## XİN: İsrail-Azərbaycan əməkdaşlığı Ermənistanda anti-semitizmi artırıb



İsrailin Diaspora məsələləri Nazirliyi tərəfindən dünyada anti-semitizm ilə bağlı vəziyyətə dair illik hesabat hazırlanıb. XİN-dən "Report"a verilən məlumata görə, 27 yanvar - Holokost qurbanlarının anım günü öncəsində dərc edilən bu hesabatda dünya ölkələrində 2020-ci ildə anti-semitizm vəziyyəti dəyərləndirilir. Hesabatda Ermənistanda...

Bax 5

### Vüqar Rəhimzadə: "Şuşa, səni dirçəldəcəyik!" deyən Ali Baş Komandan vədini reallığa çevirir



Bax 7

### Ekspert: "Qarabağımız dünyaya sülh, əmin-amanlıq, mədəniyyət işığı saçacaq"



Bax 5

### Ermənistan ordusunun təminatındakı problemlər kriminal fəsadlar yaradır



Bax 11

# Azərbaycanda məktəblərin tikintisi və əsaslı təmiri dövlətin diqqət mərkəzindədir

*Prezident İlham Əliyev Sabunçu və Suraxanı rayonlarında yenidən tikilən məktəblərdə yaradılan şəraitlə tanış olub*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də paytaxtın Sabunçu rayonunda yenidən inşa olunan 90 saylı və Suraxanı rayonunda 97 saylı orta məktəblərdə yaradılan şəraitlə tanış olub.**



Hər iki məktəbdə yeni korpusların tikintisi və təmir-bərpa işləri Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may tarixli Sərəncamına əsasən həyata keçirilib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev əvvəlcə Sabunçu rayonunun Ramana qəsəbəsində yerləşən 90 saylı məktəbdə yaradılan şəraitlə tanış oldu.

Dövlətimizin başçısına məlumat verildi ki, bu təhsil ocağının 1939-cu və 2002-ci illərdə inşa edilən iki korpusu sökülərək onların yerində 960 şagird yerlik yeni korpus tikilib. Məktəbin müasir tədris avadanlığı ilə təchiz olunan yeni korpusunda 40 sinif, 2 informatika, 4 əmək təlimi otağı, hərbi, musiqi kabinetləri, kimya, fizika, biologiya laboratoriyaları, kitabxana, idman və akt zalları, 2 yeməkxana yaradılıb. Bu təhsil ocağında 2006-cı ildə inşa edilən 288 şagird yerlik tədris korpusu və idman zalı da əsaslı təmir edilib.





Məktəb üçün yeni qazanxana, nasosxana, hər birinin tutumu 100 kubmetr olan 2 yeraltı su anbarı inşa edilib, həyətyanı sahədə abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri görülüb.

***

Prezident İlham Əliyev Bakının Suraxanı rayonunun Əmircan qəsəbəsində yerləşən 97 saylı orta məktəbdə yaradılan şəraitlə də tanış oldu.

Məlumat verildi ki, təhsil ocağının 1937-ci və 1970-ci illərdə inşa edilən iki korpusu sökülüb. Onların yerində 264 şagird yerlik dördmərtəbəli yeni müasir korpus tikilib. Eyni zamanda, 2007-ci ildə ibtidai siniflər üçün inşa edilən korpus əsaslı təmir olunub. Yeni tikilən və əsaslı təmir edilən korpuslarda zəruri tədris avadanlığı və vəsaiti ilə təchiz olunmuş sinif otaqları, fənn kabinetləri, laboratoriyalar, kitabxana, yeməkxana, idman və akt zalları var.

Həyətyanı sahəsində geniş abadlaşdırma, işıqlandırma və yaşıllaşdırma işləri aparılan məktəb üçün yeni qazanxana, nasosxana və yeraltı su anbarları inşa edilib.

Qeyd edək ki, məktəblərin tikintisi və əsaslı təmiri Azərbaycanda həyata keçirilən sosial infrastruktur layihələri içərisində xüsusi yer tutur. Çünki təhsil sahəsində keyfiyyət dəyişiklikləri üçün sistemli yanaşma var və maddi-texniki bazanın təkmilləşdirilməsi yenidənqurma işləri ilə paralel aparılır.

Görülən işlər bir daha sübut edir ki, hətta pandemiyanın dünya, o cümlədən Azərbaycan iqtisadiyyatına təsirlərinə baxmayaraq, ölkəmizdə heç bir sosial layihə təxirə salınmır.







## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə Fərman imzalayır.

# Tarix unudulmayıb...

*Prezident İlham Əliyev: "Hər kəs bilməlidir, torpaqları satan kimdir, əsarətdən qurtaran kimdir"*



**Tarixi faktları saxtalaşdırmaq olmaz. Xalqımız 2003-cü ildən bu günə kimi "müxalifət" deyilən qurumun hansı məqsədlərə və kimlərə quluq etdiklərini, ən əsası isə satqınçılıqlarını bilirdi.**

Və bu gün son 17 ildə Azərbaycan Prezidentinin öz xalqına göstərdiyi qayğı və bütün dünayını ağuşuna alan koronavirusa qarşı mübarizədə və ən nəhayət 30 illik torpaq həsrətinə 44 gün ərzində Ali Baş Komandanımızın diplomatik siyasəti, Müzəffər ordumuzun əsgər və zabitlərinin rəşadəti ilə son qoymayı - Böyük Qələbə qazanması, "Biz birlikdə güclüyük!" şüarı ilə bütün uğurlu addımları atdığını xalqımız görür və öz Liderinə inanır. Ancaq həmişə olduğu kimi, bu gün də Prezidentimizin istər siyasi, istər iqtisadi, istərsə də xarici siyasət sahəsindəki bu uğurları isə müxalifəti təşvişə salıb.

### Prezident İlham Əliyev: "Bizə saxta tarix lazım deyil. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik"

Prezident İlham Əliyev yanvarın 27-də Şuşada xüsusi nümayəndəsi təyin olunmuş Aydın Kərimovu videoformatda qəbul edərək çıxışı zamanı bildirib ki, tarixi malalamaq lazım deyil: "Mən demişəm, bir daha demək istəyirəm ki, tariximizin həqiqətə uyğun olması ilə bağlı bizim alimlər, bizim mütəxəssislər gərək dolğun məlumat versinlər, tariximizi malalamasınlar. Bizə saxta tarix lazım deyil. Sovet dövründə nə qədər saxta tarixlə üzləşmişdik. Bizim qəhrəmanlarımız düşmən kimi göstərilirdi. Xalqımızın düşmənləri, qaniçənlər qəhrəman kimi göstərilirdi. 26 Bakı komissarı - o erməni bolşevik quldur dəstəsi qəhrəman kimi göstərilirdi. Ancaq onlara qarşı vuruşan milli vətənpərvər insanlar düşmən kimi göstərilirdi. Biz bunu görmüşük. Bizim nəsil bunu görüb, saxta tarix nədir. İndi yenə kimsə saxta tarix yaratmaq istəyir. Yenə kimsə hansısa fərarinin, satqının, qorxağın günahlarını yumaq istəyir. Biz buna imkan verə bilmərik. Hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir".

Bütün çıxışlarında Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, bu gün erməni işğalından azad etdiyimiz torpaqlarımızın işğalçıya verilməsinin səbəkarları AXC-Müsavat cütlüyüdür: "AXC-Müsavat cütlüyünün bu cinayətləri heç vaxt bağışlanılmayacaq və unudulmayacaq. Həmçinin, cinayətkarlar cəzasını çəkəcəklər. Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. AXC-Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatıb. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır".

### Hər kəs etdiyi əməllərin cəzasını çəkəcək

Arzuolunmaz ssenari düzənləmək istəyənlər isə unudublar ki, nə dövlət həmin dövlətdir, nə cəmiyyət! İndi dövlət cox güclüdür, cəmiyyət isə ağı-qaradan seçə bilir. Əldə olunan nailiyyətlər sırasında təhlükəsizlik, güclü ordu, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah öndə gəlir. Son illər cəbhədə düşmənə verilən cavab, bir qarış olsun belə torpaq verməmək, əksinə yeni mövqelər əldə etmək məhz bu gücün real göstəricisidir. Və bu satqın, erməniyə nökərçilik edənlər anlamalıdır ki, Azərbaycanın güclü ordusu var və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə qadirdir və buna da nail oldu.

Ancaq 28 il "müxalifətdəyəm" deyən əqidəsi, məsləki satqınlıq olan AXCP sədri Əli Kərimli, gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Arif Məmmədov... kimilər necə ki, iş çətinə düşən kimi, "dövlətin yanındayıq", vəziyyət stabilləşən kimi olurlar iblislər, bu dələduzlar mütləq xalqın qarşısında mütləq cavab verməli olacaqlar - Özü də Azərbaycan xalqı və qanunları qarşısında!

**Rəfiqə HÜSEYNOVA**

## YAP "Vahid Rusiya" Partiyasına etiraz məktubu ünvanlayıb

Yeni Azərbaycan Partiyası Rusiya Dövlət Dumasının üzvü V. Milonovun Azərbaycana qarşı qərəzli çıxışları ilə əlaqədar "Vahid Rusiya" (Edinaə Rossiə) Partiyasına etiraz məktubu ünvanlayıb. SİA-nın verdiyi məlumata görə, məktubda deyilir: "Bu günlərdə Rusiya Federasiyasının Dövlət Dumasının "Vahid Rusiya" Partiyasından olan üzvü Vitaliy Milonov bir sıra erməni və Rusiya mediasına müsahibəsi zamanı Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr səsləndirərək, açıq-aşkar qərəzli mövqe və nifrət sərgiləyib.

Qeyd edilib ki, 44 günlük Vətən müharibəsi dövründə də V.Milonovun Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə qeyri-qanuni səfəri Azərbaycan ictimaiyyətində ciddi narazılıq doğurub, onun adı haqlı olaraq Azərbaycana girişi qadağan olunan xarici vətəndaşlar siyahısına daxil edilib. Görünən odur ki, V.Milonov özünün səhvlərindən nəticə çıxarmayaraq, Dumanın hakim partiyadan olan digər üzvü K.Zatulinin Azərbaycana qarşı sərgilədiyi qərəzli mövqeyini daha aqressiv şəkildə davam etdirməkdədir".

YAP-ın "Vahid Rusiya" Partiyasına etiraz məktubunda daha sonra bildirilir: "Yeni Azərbaycan Partiyası Dövlət Dumasının üzvü V.Milonovun ölkəmizə qarşı təxribatçı davranışını və təhqiramiz çıxışlarını qətiyyətlə pisləyir və qeyd etməyi lazım bilir ki, bu cür hallar Azərbaycanla Rusiya arasındakı dostluq münasibətlərinin ruhuna tamamilə ziddir. Şübhə yoxdur ki, onun hərəkətləri Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında əldə olunmuş, regionda sülhə və inkişafa yeni imkanlar açan razılaşmalara kölgə salmaq məqsədi daşıyır.

Dövlət Dumasında hakim "Vahid Rusiya" Partiyasını təmsil edən V.Milonovun və K.Zatulinin Azərbaycana qarşı gizlədilməyən qeyri-dost münasibəti bizdə təəssüf doğurur. Onların məsuliyyətsiz bəyanatları ikitərəfli qaydada və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edən partiyalarımızın xoş münasibətləri ilə bir araya sığmır.

Ümid edirik ki, "Vahid Rusiya" Partiyası və onun parlament fraksiyası partiyanın Rusiya Federasiyasının Dövlət Dumasındakı təmsilçilərinin gələcəkdə Azərbaycan Respublikasına qarşı bu cür düşünülməmiş və qərəzli bəyanatlar səsləndirməməsi üçün müvafiq tədbirlər görəcəkdir."

## Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Azərbaycanda 650 min ağacın əkilməsi aksiyası İspaniyada mükafata layiq görülüb

"LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin Madrid şəhərində yerləşən mənzil-qərargahında ətraf mühitin qorunmasına töhfə vermiş ölkələrin mükafatlandırılması mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə Azərbaycanda elan olunmuş "Nəsimi ili" çərçivəsində bir gündə 650 min ağacın əkilməsi aksiyasını yüksək qiymətləndirərək, buna görə ölkəmizi mükafata layiq görüb. Təşkilatçılar Azərbaycan tərəfindən planetimizin yaşıllaşdırılmasına və karbon-dioksid qazının həcminin azaldılmasına verilən töhfəni təqdir ediblər.



Sözügedən mükafatı ölkəmiz adından qəbul edən səfir A.Məhərrəmov mükafata görə "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin prezidenti Xayme de Xaraisə təşəkkür edib. O, respublikamızda ətraf mühitin, fauna və flora ehtiyatlarının qorunmasının əsas prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. Tədbirin təşkilatçılarına və iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə bu sahədə həyata keçirilən layihə və aksiyalar barədə ətraflı məlumat verilib. Bu nəcib aksiyaların qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına, ölkəmizdə, eyni zamanda, dünyada yaşıllığın artmasına verdiyi əhəmiyyətli töhfədən bəhs edilib.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən hələ 2007-ci ildən etibarən ölkəmizdə ətraf mühitin mühafizəsi məqsədilə "Hərəmiz bir ağac əkək!" aksiyasının həyata keçirilməyə başlandığı qeyd olunaraq, sözügedən layihə çərçivəsində ölkə ərazisində bir milyondan çox yeni ağacın əkildiyi diqqətə çatdırılıb.

Respublikamızda ətraf mühitin qorunması ilə bağlı geniş məlumatlandırma kampaniyası aparan, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə fəaliyyətə başlamış IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin ölkəmizin yaşıllaşdırılmasında əhəmiyyətli rolundan bəhs olunaraq, IDEA-nın BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə birlikdə "Yaşıl həftə" təşəbbüsünün uğurla həyata keçirildiyi, IDEA tərəfindən müxtəlif ölkələrdən olan gənc ekoloqların şəbəkələşməsinin təmin edildiyi diqqətə çatdırılıb. Tədbir zamanı Çili və Çex Respublikası da ətraf mühitin qorunmasına verdikləri töhfəyə görə müvafiq mükafata layiq görülüblər.

# ADA Universiteti ilə Medianın İnkişafı Agentliyinin birgə keçirdiyi seminarların ilk mərhələsi başa çatıb









***Dövlətimizin başçısı İlham Əliyevin Fərmanı ilə yaradılan Medianın İnkişafı Agentliyi (MEDİA) ilə ADA Universitetinin birgə təşkil etdiyi "Media və kommunikasiya siyasəti medianın gözü ilə" mövzusundakı seminarların ilk mərhələsi başa çatıb. ADA Universitetindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 25-26-da keçirilən seminarlarda dövlət sektorunda fəaliyyət göstərən qurumların mətbuat xidmətləri rəhbərləri, ictimaiyyətlə əlaqələr və mətbuatla iş üzrə məsul əməkdaşları iştirak ediblər.***

Seminar çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev, ADA Universitetinin media üzrə müəllimi Şəfəq Mehrəliyeva, "BP Azerbaijan" şirkətinin modernləşdirmə və transformasiya üzrə rəhbəri Rəşad Bayramov, Media İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, ADA Universitetinin Siyasi Tədqiqat və Nəşrlər üzrə direktoru Damyan Krnceviç Mişkoviç, "ASAN Radio"nun direktoru Emin Musavi, "REAL Təhlil İnformasiya Mərkəzi"nin direktoru Mir Şahin Ağayev, "APA Group"un direktoru Vüsalə Abışova ilə panel müzakirələr təşkil edilib.

İştirakçılar "İctimai əlaqələr şöbəsinin təşkilatdakı məqsədi və rolu", "Media gündəminin qurulması. Xarici mediaya çıxış", "Ənənəvi və sosial media" kimi mövzularda fikir mübadiləsinə qoşulub, media əlaqələri və kommunikasiya strategiyalarının qurulması ilə bağlı fərqli yanaşmaları analiz ediblər.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev seminarları tamamlayaraq iştirakçıları təbrik edib, onlara sertifikatları təqdim edib. Seminarların növbəti mərhələsi fevralın 2-3-də keçiriləcək. MEDİA və ADA Universiteti növbəti aylarda da mütəmadi olaraq bu formatda birgə seminarların keçirilməsini planlaşdırır.

Qeyd edək ki, ADA Universiteti "Al Jazeera Media Institute" ilə əməkdaşlıq istiqamətində danışıqlara başlayıb. Universitet bu qurumla media və kommunikasiya sahəsi üzrə xarici mütəxəssisləri cəlb etməklə birgə təlimlər təşkil edəcək.




## "Eurasia Review": Cənubi Qafqazda sülh və sabitlik ikitərəfli səylərlə bərpa oluna bilər

2020-ci il noyabrın 10-da Rusiya, Azərbaycan və Ermənistan arasında üçtərəfli bəyannamənin imzalanması İkinci Qarabağ Müharibəsini bitirməklə yanaşı Ermənistanla Azərbaycan arasında otuz ilə yaxındır davam edən münaqişəyə son verdi. Bu barədə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Esmira Cəfərovanın "Eurasia Review" portalında "Cənubi Qafqazda sülh və sabitlik quruculuğu ikitərəfli səylərlə baş verməlidir" sərlövhəli məqaləsində məlumat verilib.

BMTM-dən AZƏRTAC-a bildirilib ki, məqalədə İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə həm Ermənistan, həm də Azərbaycan üçün 1991-ci ildən bəri ilk dəfə olaraq iki ölkə arasında bütün iqtisadi və nəqliyyat kommunikasiyalarını açmaq üçün həqiqi ümidin yarandığı qeyd olunub. Bildirilib ki, 2021-ci il yanvarın 11-də yeni üçtərəfli Moskva bəyannaməsinin imzalanması bölgədəki bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını rəsmiləşdirib. Rusiya, Azərbaycan və Ermənistanın müvafiq hökumət orqanlarına Naxçıvan dəhlizinin açılması ilə bağlı konkret təkliflər irəli sürmək tapşırılıb.

Yazıda müəllif 10 noyabr bəyannaməsindən sonra baş verən hadisələrin müşahidəsinə əsaslanaraq Azərbaycanın, həqiqətən, regional sülh və sabitliyin bərqərar olmasında ciddi səylər göstərdiyini, rəsmi Bakının siyasətinin əməkdaşlığa yönəldiyini ifadə edib. Bu, Azərbaycanın yerli erməni əhalisinin vəziyyətinin yaxşılaşdırılması üçün humanitar yüklərin daşınmasına verilən icazə, Kəlbəcər rayonunun boşaldılması üçün müddətin noyabrın 15-dən 25-dək uzadılması, Gorus-Qafan yolunun Azərbaycan ərazisindən keçən hissəsinin Ermənistan tərəfindən istifadəsinə icazənin verilməsi və bu kimi digər tədbirləri əhatə edir. Təəssüf ki, Azərbaycanın bu humanist addımları Ermənistan tərəfindən düzgün qiymətləndirilmir, əvəzində isə çoxsaylı təxribatlara əl atılır. Unutmaq olmaz ki, son 30 il ərzində Cənubi Qafqazda yaradılması mümkün görünməyən "Pax Caucasia" - sülh və əməkdaşlıq mühitinin bərqərar olması hər iki tərəfin ciddi səyləri ilə mümkündür.

## Nigar Arpadarai: Azərbaycan ərazilərində saxlanılanlar "müharibə əsirləri" deyil, diversant və terrorçu qruplardır

Ermənistan nümayəndə heyəti üzvünün dediyi "müharibə əsirləri" deyil. Bu şəxslər imzalanmış üçtərəfli atəşkəs razılığından sonra Azərbaycan torpaqlarına soxulmuş və orada terror aktları törətməyə çalışan diversant və terrorçulardır. Onlar ölkəmizin müvafiq qanunu ilə mühakimə olunacaqlar. AZƏRTAC xəbər verir ki, bu fikirləri AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü Nigar Arpadarai qurumun miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinin iclasında Ermənistan nümayəndə heyətinin növbəti təxribat xarakterli çıxışına cavab verərək söyləyib.



Azərbaycanlı deputat 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkündən söz açaraq, onların da öz doğma yurdlarına qayıtmasının vacibliyini vurğulayıb. Ancaq Ermənistan 30 illik işğal dövründə Qarabağdakı bütün şəhər, qəsəbə və kəndləri darmadağın etdiyindən, yandırdığından məcburi köçkünlər evlərinə qayıda bilmirlər. "Azad edilən ərazilərdə bir dənə də dağılmamış bina qalmayıb. Xarici jurnalistlər də gördüklərindən dəhşətə gələrək, Ağdam şəhərini "Qafqazın Xirosiması" adlandırıblar. Təəssüf ki, Ermənistan nümayəndə heyətinin üzvü hələ də böhtan xarakterli, aqressiv ritorikanı davam etdirir", - deyə azərbaycanlı deputat erməni deputatın reallığı əks etdirməyən çıxışının əsassız və böhtan olduğunu vurğulayıb.

# Rusiyalı politoloq "Ermənistanın müasir dövlət ideologiyasının allyuziyaları" adlı hesabat hazırlayıb



***Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı və dəstəyi, rusiyalı politoloq Oleq Kuznetsovun müəllifliyi ilə "Ermənistanın müasir dövlət ideologiyasının allyuziyaları" adlı hesabat hazırlanıb.***

BMTM-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, yazıda ötən ilin sentyabrında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı hərbi əməliyyatların başlamasından və Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsindən sonra təcavüzkar ölkədə siyasi böhranın hökm sürdüyü, ölkənin siyasi partiyaların hakimiyyət uğrunda mübarizə məkanına çevrildiyinə diqqət çəkilir. Bildirilir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusu tərəfindən məğlubiyyətə uğradılması Ermənistan cəmiyyətində psixoloji şok effekti yaradıb. Həmçinin qeyd olunur ki, erməni cəmiyyətinin Azərbaycana uduzmasının kökündə təcavüzkar dövlət ideologiyası olan tsexakronizm ideologiyasının dayandığını etiraf etməyə hələ də cəsarəti çatmır.

Müəllif, eyni zamanda, Qaregin Njdenin bu ölkədə qəhrəmanlaşdırılması, banisi olduğu tsexakronizm ideologiyasının mahiyyəti və tarixi barədə yazır, son 20 ildə bu ideologiyanın Ermənistanın idarəçilik sistemində mərkəz mövqedə dayandığına dair əsaslar gətirir. O qeyd edir ki, nasizm ideologiyasının təbliğatçısı olan Qaregin Njdenin erməni xalqının üstünlüyünü ehtiva edən tsexakronizm ideologiyası erməni xalqının milli kimliyinə daxil olub və ölkədə geniş şəkildə təbliğ edilir.

## Müdafiə Nazirliyi: Nəcməddin Sadıkov Azərbaycan Ordusundan ehtiyata buraxılıb

Azərbaycan Müdafiə Nazirliyi müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun səhhətində problemlər yaranması və müalicə üçün Rusiyanın paytaxtı Moskvaya aparılması ilə bağlı yayılan məlumatlara münasibət bildirib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən SİA-ya bildirilib ki, N.Sadıkov hazırda Azərbaycan Ordusunda xidmətdə deyil. Qeyd olunub ki, o, ordu sıralarından ehtiyata buraxılıb. Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi vəzifəsinə təyinat olub-olmamasına gəlincə, nazirlik bu məsələyə aydınlıq gətirməyib.

# XİN: İsrail-Azərbaycan əməkdaşlığı Ermənistanda anti-semitizmi artırıb

**İsrailin Diaspora məsələləri Nazirliyi tərəfindən dünyada anti-semitizm ilə bağlı vəziyyətə dair illik hesabat hazırlanıb.**

XİN-dən "Report"a verilən məlumata görə, 27 yanvar - Holokost qurbanlarının anım günü öncəsində dərc edilən bu hesabatda dünya ölkələrində 2020-ci ildə anti-semitizm vəziyyəti dəyərləndirilir.

Hesabatda Ermənistanda anti-semitizmin ciddi şəkildə artması ilə bağlı məlumat verilir. Belə ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, eləcə də İsrail ilə Azərbaycan arasında siyasi və müdafiə sahəsində əməkdaşlığın Ermənistanda anti-semitizmin artmasına gətirdiyi vurğulanır. Bu fonda, erməni xalqına qarşı tarixi və hazırkı cinayətlər ittihamları ilə etnik-dini zəmində yəhudilərə qarşı siyasi tənqidin konkret hücumlar ilə əvəzləndiyi qeyd olunur. İsrail dövlətinə qarşı tənqidin, hətta ifrat şəkildə anti-semitizm bəyanatlarının səsləndiyi bildirilir.



Məlum olduğu kimi, Ermənistanda nasizmin təbliği və faşizmin qəhrəmanlaşdırılmasının dövlət siyasətinə çevrildiyi tərəfimizdən dəfələrlə, o cümlədən ən yüksək səviyyədə qaldırılmışdır. Bu xüsusda, Azərbaycan Respublikasının Prezidentinin 2019-cu ildə MDB Dövlət başçıları Şurasının iclasında konkret sənədlərə və dəlillərə əsaslanan çıxışını xatırlatmaq istərdik.

Azərbaycan tərəfinin davamlı şəkildə qaldırdığı və ciddi narahatlıq doğuran bu meyllər artıq beynəlxalq hesabatlarda əks olunur və beləliklə də, Ermənistanda anti-semitizmin artımı ilə bağlı həyəcan təbili çalınır.

Etnik və dini zəmində nifrət siyasətinin heç bir gələcəyi yoxdur və bu fikirlər onu təşviq edən dövlətin və xalqın fəlakətinə çevrilə bilər. Ermənistan bu təhlükəli meyllərdən çəkinməli və xalqlararası sülh, əməkdaşlıq və rifahın yaradılması naminə səylər göstərməlidir. Sözsüz ki, bunun həm Ermənistana, həm bölgəyə, həm də beynəlxalq ictimaiyyətə faydası olacaq.

# Ekspert: "Qarabağımız dünyaya sülh, əmin-amanlıq, mədəniyyət işığı saçacaq"

**Prezident İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videofarmatda qəbul edərkən düşmənin Şuşanı talan etdiyini, viran qoyub, dağıtdığını diqqətə çatdıraraq bildirib: "Şuşada olarkən, bu acı mənzərəni seyr edərkən adamın ürəyi ağrıyır. Amma biz bütün infrastruktur layihələrini icra edərək Şuşanı tez bir zamanda bərpa edəcəyik. Şuşaya gediş-gəlişin təşkil edilməsi üçün mənim sərəncamımla yol çəkilir.**



Füzuli hava limanı inşa edilir və bu ilin sonuna qədər istifadəyə verilməlidir. Ondan sonra beynəlxalq uçuşlar təşkil edilməlidir. Şuşa ilə bağlı indidən müxtəlif ölkələrdə təqdimatlar və sərgilər keçirilməlidir. Siz Azərbaycan Dövlət Turizm Agentliyi və Mədəniyyət Nazirliyi ilə birlikdə bu proqramı işləyin. Dünyanın müxtəlif ölkələrində Şuşanın tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimatı keçirilməlidir. Həm Azərbaycan ictimaiyyəti, eyni zamanda, beynəlxalq ictimaiyyət bərpa işlərimizin gedişi ilə bağlı məlumatlandırılmalıdır".

"Ölkə başçısının Şuşa və digər işğaldan azad olunmuş ərazilərimizlə bağlı verdiyi qərarların hər biri bu bölgələrin qısa zamanda bərpası və yenidən qurulması prosesinə öz müsbət təsirlərini göstərəcək". Bu sözləri "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev "İki sahil"ə açıqlamasında bildirib.

B. Quliyev onu da qeyd edib ki, hələ Şuşa şəhəri işğaldan azad edildiyi gün Ali Baş Komandan İlham Əliyev qədim mədəniyyət məbədimiz olan Şuşanın bizə - azərbaycanlılara məxsus olduğunu vurğuladı və dirçələcəyini bəyan etdi və bu bəyanat artıq əməli şəkildə həyata keçirilməyə başlayıb: "Baxın, artıq ölkə rəhbəri Şuşa başda olmaqla erməni işğalından azad edilən bölgələrimizə xüsusi nümayəndələrini təyin edir və bu təyinetmələrin mühüm tərəfi budur ki, etimad göstərilən həmin şəxslər bilavasitə Prezidentlə mütəmadi rabitədə olmaları ilə yanaşı, həmçinin bütün detallar, tələblər ətrafında ciddi fəaliyyətlər aparacaqlar. Buraya tikinti-quruculuq işləri ilə yanaşı, təhlükəsizliyin təmin olunması və s. məsələlər də aiddir. Bu, eyni zamanda ölkəmizdə aparılan və artıq uğurlu nəticələrini verən struktur, idarəetmə islahatlarının göstəricisidir".

"Şuşanın dirçəldilməsinə gəlincə, bu, bizim, bütöv Azərbaycan xalqının milli-mənəvi borcudur və hər birimiz bu işdə hansı vəzifədə, peşədə olmağımızdan asılı olmayaraq, daim öz töhfələrimizi verməliyik" deyən baş redaktor bildirir ki, belə olan halda işlər daha intensivləşəcək, kompleksli qaydada həyata keçiriləcək, ən müasir layihələr icra olunacaq, xüsusilə, Şuşamız əvvəlki vəziyyətindən qat-qat daha gözəl bir cənnətməkana çevriləcək. Bütün bunlar isə eyni zamanda Şuşa başda olmaqla, Qarabağımızın perspektiv bölgəyə sahib olmasına səbəb olacaq. Şuşa artıq işğalçılar tərəfindən viran qoyulmuş, saxta yollarla erməniləşdirilmiş şəhər deyil, dünyanın ən gözəl şəhəri ilaraq gələn qonaqları buraya heyran qoyacaq. Şuşa artıq "Xarı bülbül" festivalı, Vaqif poeziya günləri və digər ənənələrimiz Şuşamıza geri dönür. Ümumiyyətlə, biz yaxın zamanlarda bütünlüklə Qarabağımızın dünyaya sülh, əmin-amanlıq, mədəniyyət işığı saçacağını səbirsizliklə gözləyirik və bu baxımdan da söz yox ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti, müdrikliyi, liderliyi ətrafında daha sıx birləşməkdəyik. Artıq Azərbaycanın Şuşası 44 günlük şücaət epopeyası ilə dünyaya səs salan qələbə və zəfərimiz ilə alınmaz qala olduğunu sübut edib. Bundan sonra da aparılan siyasət sözügedən regionumuzun çiçəklənməsi perspektivlərinə münbit təsirlərini göstərməkə davam edəcək".

# Hikmət Babaoğlu: "Şuşada tətbiq edilən yeni idarəetmə forması nümunəvi model rolunu oynayacaq"



"İşğaldan azad olunmuş ərazilərimizdə yeni mülki idarəetmənin tətbiqi olduqca əlamətdar bir hadisədir. Bu vaxta qədər ayrı-ayrı güc strukturlarının nümayəndələri azad olunmuş ərazilərimizdə fəaliyyətə başlasalar da, mülkü idarəetmənin forması və funksiyası müəyyən edilməmişdi. Nəzərə almaq lazımdır ki, Azərbaycan Prezidenti İlham Əliyev hələ əvvəlki çıxışlarında bu mövzu ilə bağlı danışarkən bildirmişdi ki, işğaldan azad edilmiş ərazilərimizə elə idarəetmə forması tətbiq ediləcək ki, o, gələcəkdə digər ərazilərimiz üçün də model təşkil etsin. Ona görə də Şuşaya Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi, əslində həm də ölkəmizdə yeni idarəetmə institutunun yaradılması kimi qiymətləndirilə bilər". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, prezident İlham Əliyev tətbiq edilən yeni formanı Prezidentin xüsusi nümayəndəsi institutu adlandırdı: "Yeni yaradılan idarəetmə institutu şəquli və birbaşa tabeçiliyə əsaslanır, olduqca çevik və səmərəli idarəetmə forması hesab edilə bilər. Çünki yeni forma dövlət bürokratiyasından kənar birbaşa tabeçilik əsasında həyata keçiriləcək. Bu isə vəzifə və tapşırıqların daha sürətlə və çevik şəkildə yerinə yetirilməsini təmin edəcək. Hazırda Azərbaycanın tarixi böyük qayıdış planı kimi bir planı var və o artıq icra edilməkdədir. 2021-ci ilin büdcəsində bu qayıdışın infrastrukturunun və ilkin məskunlaşma şərtlərinin təmin edilməsi üçün 2.2 milyard maliyyə vəsaiti ayrılıb".

H.Babaoğlu bildirib ki, sürətli və səmərəli qayıdışın təmin edilməsi də paralel olaraq sürətli, çevik və şəffaf idarəetmə tələb edir: "Yeni idarəetmə forması həm də öz funksionallığı ilə bu vəzifənin öhdəsindən gələcək. Şuşaya xüsusi nümayəndəsini təyin edən Azərbaycan Prezidenti onun qarşısında mühüm vəzifələr də qoydu. Bu, hər şeydən öncə Şuşa şəhərinin tarixi görkəminin, tarixi, mədəni və dini abidələrimizin bərpa olunması, ənənəvi festivallarımızın və poeziya genlərimizin keçirilməsi, Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş şəhərimizin bütün infrastrukturunun modern əsaslarda yenidən qurulması və s. kimi mühüm işlərlə bağlı idi. Ona görə də bəribaşdan söyləmək mümkündür ki, Şuşada tətbiq edilən yeni idarəetmə forması və orada görüləcək işlər işğaldan azad edilmiş digər rayon və şəhərlərimizə də tətbiq edilməklə nümunəvi model rolunu oynayacaq".

***Aysel Məmmədova***

# "Bakını Qarabağın satusu ilə bağlı müzakirəyə məcbur etməmiz üçün heç nəyimiz yoxdur"

"Ermənistanda Bakını Qarabağın statusu ilə bağlı müzakirə aparmağa məcbur etməsi üçün artıq heç nəyi yoxdur". SİA xəbər verir ki, bunu ölkəsinin sabiq prezidenti Robert Koçaryan Hayeli.am, Politik.am və Yerevan.today-a verdiyi müsahibəsi zamanı deyib. Onun sözlərinə görə, münaqişənin tənzimlənməsinin bütün variant hallarında nəqliyyat kommunikasiyalarının blokadadan çıxarılması ehtimalları olurdu, lakin buna hər zaman sonuncu akkord kimi baxılırdı.

Koçaryan bildirib ki, artıq Azərbaycan ərazi məsələsini güc yolu ilə həll edib. "Ona görə də mövcud vəziyyətdə bizim Azərbaycanı Qarabağın statusu ilə bağlı məsələni müzakirəsinə məcbur etməmiz üçün artıq heç nəyimiz yoxdur. Yəni Bakı bu məsələni həll olunmuş hesab edir", Ermənistanın ikinci prezidenti müsahibəsində bildirib.

***Rövşən RƏSULOV***

# The London Post: "Azərbaycan ən yaxşı investisiya məkanıdır"

**Böyük Britaniyanın nüfuzlu The London Post qəzeti "Azərbaycan ən yaxşı investisiya məkanıdır" başlıqlı yazı dərc edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlının müəllifi olduğu yazıda bildirilir ki, son 15 ildə iqtisadiyyatını üç dəfə böyüdən Azərbaycanın qarşıdakı 10 illikdə daha iki dəfə böyümə hədəfi var.**



"Dünya investisiya hesabatı - 2020"-də 2014-2019-cu illərdə ən çox birbaşa xarici sərmayə cəlb edən Top-3 keçid ölkəsindən biri kimi qiymətləndirilən Azərbaycan, həm də "Doing Business" hesabatında ən islahatçı 10 ölkədən biridir. Regionda dördüncü sənaye inqilabının ilk mərkəzini yaradan və davamlı inkişaf indeksinə görə lider olan Azərbaycanda əlverişli biznes mühiti, təklif edilən özəlləşdirmə gündəliyi və dövlət-özəl əməkdaşlığı imkanları, həmçinin Qarabağda bərpa prosesi yeni investisiya dalğası yaradacaq. Azərbaycanın müəllifi olduğu yeni regional arxitektura, kommunikasiya və iqtisadi əlaqələrin bərpası bölgənin sərmayə cəlbediciliyini artırıb.

V.Qasımlı məqalənin yekununda bildirib ki, dünyada ÜDM-ə nisbətdə ən az xarici borca və ən çox strateji ehtiyatlara, həmçinin sabit valyuta və aşağı inflyasiyaya malik olan Azərbaycanda xarici sərmayələr üçün təşviqlər və qarantiyalar mövcuddur. "The London Post" qəzetində dərc olunun məqalə ilə təqdim olunan link vasitəsi ilə tanış ola bilərsiniz: https://thelondonpost.net/azerbaijan-the-best-destination-for-investment-dr-vusal-gasimli/

# Kafe və restoranlar həftəsonları da işləyəcək

Fevral ayının 1-dən etibarən şənbə və bazar günləri də ictimai iaşə müəssisələri yerində xidmət göstərə biləcək. Bunu Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov deyib. Qurum rəsmisi bildirib ki, həftəsonları ictimai nəqliyyatın fəaliyyəti ilə bağlı isə hələlik dəqiq məlumat yoxdur, bu barədə əlavə məlumat veriləcək. Xatırladaq ki, Nazirlər Kabinetinin 16 yanvar 2021-ci tarixli qərarına əsasən, 2021-ci il 1 fevral saat 00:00-dan etibarən ölkə ərazisində ictimai iaşə obyektləri, eləcə də restoran, kafe, çay evləri, bərbərxana və gözəllik salonları müştərilərə saat 06:00-dan 00:00-dək yerində xidmətlər bərpa olunur.

# Xankəndindən gələn siqnallar: **atəşkəsin pozulması qədər təhlükəlidir!**

***Artıq bir neçə müddətdir ki, separatçı quldurların və terrorçu qalıqlarının sığındıqları sonuncu platsdarm mərkəzi - Xankəndindən istər-istəməz qıcıqlar yaradan, hətta açıq-aşkar meydanoxuma təsiri bağışlayan, o cümlədən, təxribatçılıq məqsədləri güdən bəyanatlar səsləndirilməkdədir.***

> Bunun üçün heç də hansısa araşdırmalar aparıb, situasiyanı zorən müsbət məcraya doğru yönəltməyə də ehtiyac yoxdur

Belə ki, mövcudluğuna son qoyulmuş və son nəfəsini verən qondarma “dqr”in “hərbi-siyasi” rəhbərliyinin bu günün özündə belə aşkar həyasızlıq sərgiləmələri, Azərbaycanın ərazi bütövlüyünə qarşı sərsəm bəyanatlar səsləndirmələri, bu da azmış kimi “güc nazirlikləri” yaradaraq, oraya “nazir” və s. “vəzifələr” təyin etmələri onların heç də sülhə hazır olmamalarını, əksinə - yeni müharibəyə təhriklərini açıq-aşkar isbatlamaqdadır. Yəni bunun üçün heç də hansısa araşdırmalar aparıb, situasiyanı zorən müsbət məcraya doğru yönəltməyə də ehtiyac yoxdur: loru dillə desək kor-kor, gör-gördür və bunun əsnasında təcili addımların atılması zərurəri günü-gündən daha çox görünməyə başlayır.

### Beş-on nəfərlik erməni quldur çetesinin həyasızlıqları heç cür qəbul ediləsi hal kimi qiymətləndirilə bilinməz

Xüsusilə, Ali Baş Komandanımızın rəhbərliyi altında və müzəffər ordumuzun şücaəti nəticəsində cəmi 44 günə işğaldan azad edilmiş torpaqlarımızın yerdə qalan cüzi hissəsində (!) beş-on nəfərlik erməni quldur çetesinin həyasızlıqları heç cür qəbul ediləsi hal kimi qiymətləndirilə bilinməz.

Bilinməz ona görə ki, əzəli və əbədi torpaqlarımız olan Xankəndi, Xocalı, Əsgəran, eləcə də digər bir neçə digər ərazilərimizdə, hətta üçtərəfli bəyanatdan sonra belə, separatçıların əski parçaları dalğalanmaqda davam edir. Üstəlik, həmin əski parçaları təmas xətlərindən görünməkdədir!

O cümlədən, bu gün özünü “dqr”in “prezidenti” hesab edən Araik Arutunyan məhz Azərbaycanın ərazisində ola-ola qırmızı axtarış səhifəsindədir və onun, eləcə də ətrafındakı quldur dəstələrinin terrorbaşıları qismində həbs edilərək ölkə qanunlarımız çərçivəsində mühakimə olunmaları vacibliyi unudulmamalıdır. Təkcə Araik Arutunyanın müharibə dövründə Gəncəni, Bərdəni və s. şəhərlərimizi raket atəşlərinə tutulması, dinc əhalimizin qətlə yetirilməsi istiqamətində verdiyi - “Şəhərlərin vurulması şəxsən mənim əmrimlə olub” bəyanatı heç birimizi rahat buraxmamalı, sakit oturmamıza, seyrçi qalmamıza səbəb olmamalıdır!



### Terrorçu Poqosyan əlavə edib ki, azərbaycanlı qaçqınların onların nəzarətində olan ərazilərə geri qayıtmaları istisna olunur

Və onun “artsax” heç vaxt Azərbaycanın tərkibində statusa malik olmayacaq” bəyanatının ardınca ətrafındakı tör-töküntülərin - məsələn, “dqr”in “prezident aparatının baş informasiya idarəsinin” saxta rəisi Vaqram Poqosyanın da eyni sözləri təkrar etməsi, üstəlik, daha həyasız məcraya yönəltməsi bıçağın növbəti dəfə sümüyə dayandığını sübut edir. Nə deyib Poqosyan? Deyib ki, “artsax” heç vaxt Azərbaycanın tərkibində ola bilməz. Yaxud bildirib ki, belə bir məsələ müzakirə olunmur və “artsax hakimiyyəti” dəfələrlə bu barədə yaranan şayiələri rədd edib. SİA xəbər verir ki, o, Poqosyan bunu 168.am- müsahibəsində bildirib. Bu baxımdan da, üzvü olduğu terror çetesinin başçısı Araik Arutunyanın sözlərinə istinad edərək, “Həmin suala prezident səviyyəsində dəqiq cavab verilib”, ifadəsini təkrarlayıb. Bu da son deyil! Terrorçu Poqosyan əlavə edib ki, azərbaycanlı qaçqınların onların nəzarətində olan ərazilərə geri qayıtmaları istisna olunur və bu barədə də məsələ müzakirə edilməyib (?!-R.R.)

İndi isə gəlin bu məsələni bir daha dərindən araşdıraq və yenidən separatçıların “sülhəhazırolma” timsalında maraqlarının açıq etiraf edək ki, olmadığını vurğulayaq...

### Hər an Azərbaycan dövləti və əsgəri üzərinə düşən missiyasını başa çatdırmaq qərarını verə bilər

Söz yox ki, heç Ermənistan rəhbərliyi də buna hazır deyil. Sadəcə, Azərbaycanın qalibiyyəti və güc tətbiq edərək torpaqlarını işğaldan azad etməsi, erməni iqtisadiyyatının və həbri sahəsinin tamamilə çökməsi yerdə qalan bir sıra problemlərin aradan qaldırılmasına səbəb olmaqdadır - nəqliyyat kommunikasiyaların açılması və s. məsələlər. Yəni erməni tərəfi məğlubiyyətə uğradığı üçün buna məcbur edilib və onların əllərində imkan olsaydı, söz yox ki, daha 30 il sentyabrın 27-ə qədər olan vəziyyəti davam etdirəcəkdilər. Bu zaman sual yaranır: nəyə görə Xankəndində qalan terror çetesi hələ də “mənəm-mənəm” deyəcək qədər burnunu çölə çıxarmağa başlayıb? Nəyə, kimə və haralara güvənir? Bəli, Rusiya sülhməramlılarına və yalnız onlara. Onda sülhün, atəşkəsin təmin olunması üçün bölgəyə gətirilən sülhməramlılar əziyyət şəkib, sözügedən ünsürləri oradan çıxarmalı, eləcə də axtarışda olan terrorçuların həbs edərək Azərbacana təhvil verməyə borcludurlar. Biz hələ yerdə qalan digər xırdapara məsələləri demirik...

Və ən nəhayət, Xankəndindən gələn siqnallar atəşkəsin pozulması qədər təhlükəlidir və bu reallıq hər zaman, daim diqqətdə olmalıdır. Çünki bu gün heç nələri qalmasa belə, yenə də hərbi ritorikalarla çıxış edənlərin hətta quru-quru olsa da, bəyanatlar vermələri sabah daha ağır fəsadlara səbəb ola bilər.

Yeri gəlmişkən, ortada sülh razılaşması yoxdur və üçtərəfli atəşkəs razılaşmasını, hələlik, bəyanatlarla pozanlar da ermənilərdir və rus sülhməramlıları bütün bunların müqabilində konkret tədbirlər görməlidirlər, görə bilmirlərsə, çəkilməlidirlər kənara - ona görə ki, hər an Azərbaycan dövləti və əsgəri üzərinə düşən missiyasını başa çatdırmaq qərarını verə bilər. Buna isə kimsənin şübhəsi olmamalıdır!

*Rövşən RƏSULOV*

## Şuşada qeydiyyatdan keçmiş 210 abidə var



Şuşada qeydiyyatdan keçmiş 210 abidənin 142-si Şuşa Tarix və Mədəniyyət Qoruğunun payına düşür. SİA-nın məlumatına görə, bunu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi vəzifəsini icra edən Azad Cəfərli deyib. Həmin abidələrin hamısının bərpa ediləcəyini bildirən A.Cəfərli deyib ki, işğaldan azad edilmiş ərazilərdə abidələrin monitorinqi və təftişi 4 istiqamət üzrə aparılır. Bunlar tamamilə məhv edilmiş, dağıdılmış, vandalizmə məruz qalmış və erməniləşdirilmiş abidələr qruplarıdır.



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Putin nəbz yoxlayır: **Navalnı komediyası!**

**Yadıma gəlir, artıq idarəolunmaz hala gələn Boris Yeltsin 1999-cu ilin son dekabr gecəsində kabinetini balacaboy Vladimir Putinə təhvil verəndə gözləri yaşarmışdı. Kremldə nostalji anlar yaşandı o məqamda. Yeni ili qarşılamaq üçün süfrə axasında “vodka”nı qucaqlayan ruslar, əsl şok yaşayırdı. İllərin araq düşkünü olan Boris Nikolayeviç sanki kabinetini deyil, axirət evini V.Putinə hədiyyə edirdi...**

Kimdir V.Putin, hakimiyyətə gəldikdən sonra Rusiya üçün nə etdi, Rusiyanı və rusları hardan hara gətirdi?. Kremldə 22 ilə yaxınlaşan hakimiyyəti zamanı Rusiya balacaboy V.Putindən nə qazandı, nə itirdi?. Bu suallara cavab tapmaq üçün hazırkı Rusiyanın görkəminə nəzər salmaq kifayətdir məncə. V.Putin tarixi baxımdan xarizmatik liderdir, burası mübahisəsiz belədir. O, SSRİ-nin süqutundan sonra dünya siyasətində qapazaltı vəziyyətinə düşən Rusiyanın dünyadakı imicini özünə qaytaran və daha da gücləndirən şəxsdir. Amma indi Rusiya üçün yenilik etmək leninqradlı çekistin işi deyil...

O, Çeçenistan müharibəsi zamanı dağılmaqda olan Rusiyanın ipini yığıb dövləti qorudu. O, Rusiyanı əyyaş B.Yeltsinin zamanındakı qapazaltı dövlət imicindən xilas edib, hazırda dünyada əsas güc sahiblərindən birinə çevirdi. Həttda Rusiya SSRİ dövründəkindən daha güclü söz sahibidir dünyada. V.Putinin özü o dərəcədə gücləndi ki, hətdda ABŞ-dakı seçkilərə barmaq uzadacaq qədər güc nümayiş etdirdi. Bu, sözün əsl mənasında Rusiya üçün Putinin kimliyini göstərən tarixi pasportdur.

Amma tarixi baxımdan ruslar daha V.Putinin despot idarəsi altında yaşaya bilmirlər. Rusiya cəmiyyəti sözün əsl mənasında despot idarəçiliyin yumruğu altında boğulur, vəssalam.

Baxın, illərdir balacaboy sovet çekistinə qarşı cınqırını çıxarmağa cəsarəti olmayan “vodka” sevdalı ruslar, artıq Moskva və Peterburq küçələrində ucadan etiraz mahnıları oxumağa başlayıblar. Müxalifətçi blogger Aleksey Navalnının V.Putinə qarşı məhəllə davasına bənzər səs-küy salması, 20 illik “dəmir yumruqdan” bezən rusları dilə gətirib. Əvvəllər Kreml sahibinə qarşı narazılıqlarını öz evlərində və iş yerlərində sakitcə, pıçıltı ilə dilə gətirən ruslar, indi artıq küçələrdə ona qarşı şüarlar səsləndirirlər. Özü də A.Novalnını dəstəkləməklə!.

Məşhur tezisdə deyildiyi kimi, “İnqilab o zaman baş verir ki, yuxarıdakılar əvvəlki qaydada idarə edə bilmir, aşağıdakılar isə, əvvəlki kimi yaşamaq istəmirlər.” İndiki halda V.Putindən narazıçılıq səsini getdikcə daha da gur çıxarmağa başlayan Rusiya cəmiyyətinin inqilaba hazır olub-olmadığını müəyyənləşdirmək hələ tezdir. Amma görünən tərəf odur ki, ruslar balacaboy Kreml sahibinin onları yenə öz köhnə dəmir yumruğu ilə idarə etməsinə dözmək istəmirlər, vəssalam. Həttda bol vodka və kolbasa hədiyyəsi belə, rusları çətin ovundursun.

Rusiyanı bürüyən cinayətkar məmur şəbəkəsi, iqtisadi böhran, sosial partlayış həddinə çatan ürəkağrıdan vəziyyət artıq bu cür davam etmənin mümkün olmayacağının siqnalını verir. V.Putinin 21 illik “dəmir yumruğu” ilə rusları bundan sonra daha bir neçə il idarə etmək çətin olacaq deyəsən...

Bütün günü tutuquşu kimi V.Putini zəhlətökən şəkildə tərifləmək, ona yaltaqlanmaq üçün ən həyasız cildlərə girən Jirinovskilər, Züqanovlar, onlardan geri qalmayan rusiyalı ekspert və analitiklər, Rusiya telekanallarının səhərdən axşama qədər Kreml sahibinə rus çarı kimi tərif yağdıran şablon “verilişləri” ruslara iyrənc görünür.

Bir zamanlar Dostoyevskinin, Puşkinin, Lermantovun əsərləri ilə qidalanan, bütün dünya ədəbi düşüncəsində hegemoniya yaradan Rusiya ədəbiyyatı artıq ancaq xatirələrdə yaşayır. Yoxdur artıq elit və intelektual Rusiya cəmiyyəti, getdi işinin dalınca. Rusiya cəmiyyəti, bu gün sərxoş, ac və ümidsiz insan toplumunun faciəsini izləyir, vəssalam.

Gələk A.Novalnıya. Novalnı rus cəmiyyəti üçün sadəcə bir tutanaqdır, başqa heç nə. İndi Rusiyada elə bir situasiyadır ki, illərdir narazı olan və bu cür yaşamaqdan bezən ruslar üçün istənilən qəhrəman Lenindir. Amma A.Novalnı hazırkı Rusiya üçün Lenin ola bilməyəcək. Çünki... o V.Putindən bezən kütlənin həqiqi lideri olaraq, Moskvada inqilab edəcək biri deyil. O sadəcə balacaboy Kreml sahibinin ondan bezən rus cəmiyyətinin nəbzini yoxlamaq, rusların narazılıq “havasını boşaltmaq” və etiraz dalğasını uğursuzluqla sonlandırmaq üçündür. O sadəcə Vladimir Vladimiroviçin layihəsidir. V.Putin indiki situasiyada rusların etiraz tonunun dərəcəsini dəqiq ölçmək istəyir.

Əlbətdə Rusiya kimi inqilab lokomotivində istənilən situasiya və hadisə mümkündür. Amma onu da unutmayaq ki, hansısa bloggerin qışqırıq salmaqla nəhəng Rusiyada inqilab havası yaratması qəliz məsələdir. Bir çoxlarının guya Novalnın V.Putinə qarşı Qərbdəkilərin planı olması barədə dedikləri lap nağıldır. Hansı ağıllı Rusiya düşməni, ABŞ-ı belə küncə sıxan V.Putin kimi despota qarşı heç bir sosial dayağı, ideyası və siyasi obrazı olmayan Novalnı kimi birisinə “stavka” edər?. Bunu edən ya hədsiz dərəcədə axmaq və ya şoumendir, ya da əziz Vladimir Vladimirovinin “əlinə oynayan” birisi. Qərbin özündə V.Putinin əlinə oynayacaq o qədər ciddi siyasi qüvvələr var ki. A.Novalnının “zəhərlənməsinə” gəlincə... vaxtı ilə Drezdendə yüzlərlə belə “əl işi” olan V.Putin üçün indi yaşının bu çağında belə siyasi əyləncələrlə məşğul olmaq su içmək kimi bir şeydir. Düzdür, V.Putin məğlubedilməz deyil, amma hazırda onu A.Novalnı ilə laxladıb Neva çayına atmaq real deyil, vəssalam....

# Vüqar Rəhimzadə: "Şuşa, səni dirçəldəcəyik!" deyən Ali Baş Komandan vədini reallığa çevirir



**"Möhtərəm Prezidentimiz İlham Əliyevin işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə imzaladığı 19 yanvar 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" Fərmanına əsasən ilk olaraq Şuşa rayonunda xüsusi nümayəndənin təyin edilməsi qürurverici və diqqətçəkən məqamdır.**

Dövlətimizin başçısı İlham Əliyev Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən birinci təyinatın məhz Şuşa rayonuna olmasını belə əsaslandırmışdır ki, Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir.

Dövlətimizin başçısı İlham Əliyevin noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi müjdəsini Şəhidlər xiyabanından xalqımıza çatdırarkən, həmçinin bu günlərdə ailə üzvləri ilə birlikdə Şuşaya səfəri zamanı orada keçirdiyi anlardan xoşbəxtlik duyğularını böyük sevinclə dilə gətirməsi, bunun ardınca azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəsi institutunun yeni yaradılmasına baxmayaraq ilk təyinatın Şuşa ilə bağlı olması Qarabağın ürəyi olan Şuşanın 28 illik nisgilinə, həsrətinə son qoyulmasının nə qədər qürurverici olduğunu nümayiş etdirdi". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyevin 44 günlük müharibə dövründə xarici KİV-lərə verdiyi müsahibələrində "Şuşasız işimiz yarımçıq olar" söyləməsi də bu bölgəmizin işğaldan azad edilməsinin nə qədər həsrətlə gözlənildiyinə aydınlıq gətirmişdi: "Azərbaycanın hər qarış torpağı xalqımız üçün əzizdir. Məhz bu torpaq həsrəti, Vətən sevgisi yaşından asılı olmayaraq hər bir Azərbaycan vətəndaşını torpaqlarımızın işğaldan azad edilməsi üçün səfərbər olmağa çağırdı və dəmir yumruq kimi birləşdirdi. İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının qürurunu özünə qaytardı. Bu gün xalqımız öz yenilməzliyi, məğrurluğu ilə fəxr etməklə yanaşı, başı uca, alnı açıqdır. 30 illik işğala, nisgilə, həsrətə son qoyuldu".

Baş redaktor bildirib ki, işğaldan azad olan digər torpaqlarımız kimi, Şuşada da evlərimiz, mədəni və dini abidələrimiz tamamilə dağıdılmış, yerlə-yeksan edilmişdir: "Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Noyabrın 8-də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad edilməsi xəbərini xalqımıza çatdırarkən "Şuşa, sən azadsan! Şuşa, səni dirçəldəcəyik!" bəyan etməsindən sonra bugünkü addımları ilə bu vədinin də reallığa çevrildiyini təsdiqlədi".

"Dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında torpaqlarımızın işğal olunmasında AXC-Müsavat cütlüyünün xəyantlərindən bəhs edir, onların günahkar olduqlarını əsaslı şəkildə diqqətə çatdırır" söyləyən baş redaktor bildirib ki, müstəqilliyimizin ilk illərində yaşananlar hər kəsə yaxşı məlumdur: "Həmin dövrdə Silahlı Qüvvələrimizin torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəsinə xidmət etməsi işğala geniş yol açırdı: "Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Möhtərəm Prezidentimiz Aydın Kərimovu videoformatda qəbul edərkən bir daha bu reallıqları hər kəsin bilməsinin vacibliyini diqqətə çatdırıb. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdilər. Şuşa faktiki olaraq düşmənə təhvil verildi. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib".

"Bunlar tarixdir" söyləyən baş redaktor bildirib ki, illər keçdikcə həmin hadisələrin mahiyyəti daha aydın görünür, dərk edilir: "O zaman torpaqlarımızı satanlar bu gün özlərini xalqa yaxın göstərməklə keçmişi unutmağa və unutdurmağa cəhdlər göstərsələr də bunun mümkünsüzlüyünün fərqindədirlər. Çünki zamanın hakimliyi, tarixin yaddaşlığı daim hər bir hadisəni düzgün dəyərləndirməyə əsas verir".

V.Rəhimzadə belə bir ümumiləşdirməni diqqətə çatdırıb ki, bu gün işğaldan azad edilmiş bütün torpaqlarımızda bir canlanma yaşanır: "Əsas olan budur ki, düşmən diz çökdürüldü, kapitulyasiya aktına imza atdı, torpaqlarımız öz tarixi sahiblərinə qayıtdı. Dövlətimizin başçısı İlham Əliyev Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib. Möhtərəm Prezidentimiz bildirir ki, bərpadan sonra Şuşada həyat qaynamalı, insanlar qayıdandan sonra Şuşanın çox zəngin mədəni həyatı olmalıdır. Həm ölkə daxilindəki tədbirlər, eyni zamanda, bir çox beynəlxalq tədbirlər - festivallar, müsabiqələr, qastrollar orada keçirilməlidir. Yəni, Şuşa nəinki Azərbaycanın, əminəm ki, bütövlükdə bölgənin mədəniyyət paytaxtı adına layiq olacaq. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə Şuşanın işğaldan azad edildiyi tarixin Zəfər Günü kimi təsis edilməsi bütün məqamları özündə ehtiva edir".



## Bu məktəbdə oxuyan şagirdlər hər gün dərsə gedəcəklər

"Şagirdlər uzun müddətdir ki, məktəbdən kənardadır və rejimləri dəyişib. Onlayn dərslər ənənəvi dərslər ilə müqayisədə bir az gec başlayır. Yaxşı olar ki, bu həftədən etibarən valideynlər uşaqlarını erkən saatlarında oyadıb səhər saatlarında dərsə getməyə hazırlasınlar. Çünki indi uşaqlar bir az gec yuxudan oyanırlar. Onlara birdən-birə bu dəyişiklik mənfi təsir göstərə bilər." Bu fikirləri "İki sahil"ə açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Ekspert qeyd edib ki, fevralın 1-dən etibarən 640 min şagirdi əhatə edəcək 1,2,3,4-cü siniflər məktəblərə gedəcək: "O məktəblərdə ki, şagird sıxlığı ümumi 200 min nəfərdən azdır, həmin məktəblərin şagirdləri həftədə 4 və yaxud da 5 dəfə dərsə gedəcəklər. Bu da ənənəvi dərsin bərpası deməkdir. Xüsusən şagird sayı az olan modul tipli məktəblərdəki şagirdlərin sayı 100-dən azdır. Həmin tədris müəssisələrində şagirdlər həftənin dərs olan bütün günləri dərsə gedəcəklər. Yəni, onların cədvəllə bağlı hər hansı bir problemi olmayacaq."

## 437 nəfər COVID-19-dan sağalıb, 209 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 209 yeni yoluxma faktı qeydə alınıb, 437 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan "İki sahil"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib.



İndiyədək ölkədə ümumilikdə 229 793 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 222 154 nəfər müalicə olunaraq sağalıb, 3 113 nəfər vəfat edib, aktiv xəstə sayı 4 526 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 060, ötən müddət ərzində isə ümumilikdə 2 387 134 test aparılıb.

# Erməni vitse-spiker müxalifətin seçkilərdən imtinasını bu cür izah etdi

*Alen Simonyan: "Əgər müxalifət razı olmursa, deməli, qiyabi olaraq seçkiləri uduzduğunu hesab edir"*

***Ermənistanın hakim komandası seçkilərdə uduzacağı halda bunu fəlakət hesab etməyəcəyini bildirir və qeyd olunur ki, istənilən halda siyasətdə qalıb növbəti seçkilərdə iştirak edəcək. SİA Sputnik-Armeniya-ya istinadən xəbər verir ki, Ermənistan parlamentinin vitse-spikeri Alen Simonyana görə, hakim elita seçkilərin keçirilməsinin tərəfdarı olaraq çıxış edirsə, müxalifət imtina edir. Sayt yazır ki, bu nonsensdir və əlavə olaraq, Simonyan yaranmış situasiyada müxalifətin özünü əsas pproblem hesab edir.***

Adıçəkilən sayta açıqlama verən erməni vitse-spiker qeyd edib ki, istər hakimiyyət, istərsə də müxalifət tərəfindən aparılan sorğulara görə əhalinin 72%-i iqtidarı dəstəkləyir. Onun sözlərinə görə, hakim partiya, ilk növbədə, insanların bundan sonra necə yaşayacağı və nəyi doğru hesab etmələrini öyrənmək məqsədi ilə ölkə əhalisi üçün seçkilər keçirməyi təklif edir. "Əgər müxalifət razı olmursa, deməli, qiyabi olaraq seçkiləri uduzduğunu hesab edir", deyən erməni vitse-spiker bildirib ki, bundan sonrasını hakim partiya həll edəcək.



### Müxalifət xalqı tərənnüm etmir, sadəcə, keçmiş məmurları və onlara mənsub bir neçə böyük oyunçuları təmsil edir

Simonyan eyni zamanda bildirib ki, hakim komandanın növbədənkənar seçkilər keçirmək istədiyi halda, müxalifətin bundan kənarda dayanması paradoksal situasiya əmələ gəlib. Həmçinin, müxalifətin seçkilərin nəticələrinin falsifikasiyaya uğrayacağı barədə fikirlərinə də münasibət bildirən vitse-spiker bu iddiaları absurd adlandırıb və maraqlı məqama toxunub. O, Ermənistandakı azad seçkilərin keçirilməsi praktikasının yenidən pozulacağından ehtiyat etdiyini bildirərək qeyd edib ki, onun özü və komandası üçün qələbə əsas deyil, əksinə, əsas olan budur ki, ölkədə möhkəm hakimiyyət formalaşsın və bu formalaşmanı hər hansı kabinetlərdə gizlənən və nələri isə həll edən keçmiş məmurlar deyil, xalq həyata keçirsin.

O, müxalifəti əsas problem adlandırıb. Belə ki, müxalifət xalqı tərənnüm etmir, sadəcə keçmiş məmurları və onlara mənsub bir neçə böyük oyunçuları təmsil edir. Simonyanın sözlərinə görə, xalqın nə hakimiyyətdə, nə də müxalifətdə böyük seçimi yoxdur. Bundan əlavə, mövcud hakimiyyəti sevməyən vətəndaşlar yenə də bu hakimiyyətə üstünlük verirlər və bunu belə izah edirlər ki, heç olmasa iqtidar sabiqlərdən ibarət deyil.

### Simonyana görə, bu, heç də şərəfli iş deyil

Simonyan onun barəsində səslənən digər fikirlərə də aydınlıq gətirib. Vitse-spiker barəsində danışılan "rusdilli feyklərin kuratoru" iddialarını yalan adlandırıb və ümumiyyətlə, bu kimi məsələlərə heç bir aidiyyatının olmadığını deyib. "Mən hesab edirəm ki, bu gərəksiz fəaliyyətdir, mən heç vaxt bununla məşğul olmamışam. Sadəcə, mən üzdə oluram və mütəmadi şəkildə media ilə məşğul oluram, mediada müsahibələrə gedirəm. Qərara gəliblər ki, bu mövzunu da mənə yapışdırsınlar", deyə Simonyan bildirib.

O, qeyd edib ki, belə iddiaların heç biri təsdiqini tapmayıb və hesab edir ki, deməyə sözləri qalmayıb, ona görə də bənzər məsələləri zorən onun üzərinə qoymağa çalışırlar və bu, heç də şərəfli iş deyil.

**Rövşən RƏSULOV**

# Şuşa nəinki Azərbaycanın, Qafqazın mədəniyyət paytaxtı kimi mühüm mərkəzə çevriləcək

**2020-ci il noyabrın 8-i tariximizə şanlı bir gün kimi yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu, rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-dən Qarabağda başladığı və 44 gün ərzində aparılan uğurlu əks-hücum əməliyyatları sırasında ən mühüm tarixi hadisə və böyük hərbi qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli qədim Şuşa şəhərinin rəşadətli ordumuz tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər günü kimi tariximizə yazıldı.**

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində deyib: “İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!”







Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov bildirib.

E.Əhmədov deyib: “Tarixə nəzər salsaq, görərik ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası (Üçmıx dağında) bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Şuşa qalası uzun illər Azərbaycanın Qarabağ xanlığının paytaxtı olmuşdur. Şuşa qalasının salınması 1750-1751-ci illərdən hesab edilir. Tarixi mənbələrə görə, 1750-ci ildə hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Qarabağ xanı Pənahəli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənahəli xanın şərəfinə Pənahabad, sonradan isə Şuşa qalası və Şuşa adlandırılmışdır. İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli fikirlər söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur.

Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar var. Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Şuşada “Bazarbaşı” deyilən yerdən “Şeytanbazara” qədər uzanan üstüörtülü ticarət mərkəzi və şəhərin əsas küçəsi “Rastabazar” adlandırılırdı. “Rastabazar”ın sıra ilə düzülən və daşları bir-birinə qurğuşunla bərkidilən sütunlardan, tağlardan ibarət olan və qalereyanı xatırladan səkiləri başdan-başa örtülü olduğundan bütün fəsillərdə quru və təmiz qalırdı. Küçənin ortası ilə nəqliyyat vasitələri hərəkət edirdi. Orta əsr Şərq üslubunda zövqlə tikilən bu bazar həm də şəhərə xüsusi yaraşıq verirdi. Şuşanın ticarət mərkəzinin bənzərsiz görkəmi onun magistralına bitişik iri bazar meydanı ilə tamamlanırdı. Şəhərin “Meydan” deyilən əsas meydanı “Rastabazar” küçəsi boyunca tikilmiş ibadətgah və ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan və qoşa minarəli yaraşıqlı Cümə məscidindən ibarət idi. XX əsrin əvvəllərində şəhərdə 1464 dükan qeydə alınmışdı ki, bunların da bazarlarla birlikdə illik ticarət dövriyyəsi 6 milyon rubla çatmışdı.

Qeyd etmək vacibdir ki, tarixi mənbələrdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. 1809-cu ilin məlumatına görə, o dövrdə Şuşada 1500 toxucu dəzgahı fəaliyyət göstərirdi. Bu da ən azı 1500 sənətkar demək idi. Tarixi mənbələrdə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində artıq Şuşada çoxlu sayda manufakturaların və 2 mindən çox sənətkarın fəaliyyət göstərdiyi bildirilir. XIX əsrin 60-cı illərində Şuşada illik ticarət gücü 78 milyon rubla bərabər olan ipəksarıma fabrikləri fəaliyyət göstərirdi ki, çox keçmədən həmin müəssisələrin illik istehsal gücü 117 milyon rubla çatmışdı.

Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur. 1854-cü ildə şəhərdən cənubda, 18 kilometr aralı “Turşsu” deyilən səfalı guşədə mədən suyunun çıxması da alimlərin mülahizəsini doğrultdu. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınmışdır. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerləri, istirahət guşələrinə görə məşhur idi. Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən və dünyanın heç bir yerində bitməyən “Xarı bülbül” gülü bitir. Bu endemik gül həm gözəl, həm də müalicəvidir.

Artıq XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar.

Sovet dövründə ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Ümummilli Lider bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərirdi. Hər şeydən əvvəl Qarabağ tarixini, mədəniyyətini, incəsənətini, iqtisadi inkişafını mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşmışdır. Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşanın tarixi keçmişini yaxşı bilən Heydər Əliyev bu şəhərin inkişafına çox böyük qayğı göstərirdi.

Ümummilli Lider Şuşaya zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu gücləndirdi. Ölkənin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Ümummilli Lider tövsiyə edərək demişdi: “Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır”. Heydər Əliyevin bilavasitə səyləri nəticəsində, az sonra Şuşa şəhərini tarix-memarlıq qoruğu elan edən qərar qəbul olundu. Həmin illərdə ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağa göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Ümummilli Lider Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Heydər Əliyev abidənin tikintisini böyük, əlamətdar hadisə hesab edirdi. Ümummilli Liderin M.P.Vaqifin məqbərəsinin açılışında söylədiyi nitq onun Qarabağa qayğısının göstəricisi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Bununla yanaşı, Ulu Öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini də vermişdi. Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə Ümummilli Lider ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 500-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk də-

# Şuşa nəinki Azərbaycanın, Qafqazın mədəniyyət paytaxtı kimi mühüm mərkəzə çevriləcək

mir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Bir vaxtlar "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir. Bu baxımdan, strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayan Azərbaycan Prezidenti bildirib: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik...O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır".

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd edib ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək deyib: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır". Dövlət başçısı vaxtilə Vaqif poeziya günlərinin ənənəvi olaraq keçirildiyini vurğulayaraq diqqətə çatdırıb ki, Şuşada Vaqif poeziya günləri və "Xarı bülbül" festivalı bərpa olunmalıdır".

Elçin Əhmədov qeyd edib ki, Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı Sərəncama əsasən noyabrın 8-i bayram günləri sırasına daxil edildi və hər il ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin Sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zaman gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".

Prezident İlham Əliyev deyib ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmiş, 28 il ərzində buna çalışmış lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi: "Məlumdur ki, işğal dövrünə qədər Şuşa şəhərində daim azərbaycanlılar yaşamışlar. Burada erməni əhalisi demək olar ki, yox idi. Hətta 1920-ci illərdə bizim torpağımızda Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda Şuşanın əhalisinin əksəriyyəti azərbaycanlılar olmuşdur və işğal dövründə əhalinin 98 faizi azərbaycanlılar idi...Orada təkcə bizim məscidlərimiz yox, bütün binalar dağıdılıb. Sovet vaxtında tikilmiş "Xruşovka"lar deyilən binalar, - hansı ki, Şuşanın memarlıq ansamblını kobudcasına pozur, - qalmışdı, orada da məskunlaşmışdılar". Həqiqətən sovet dövründə Qarabağdakı erməni rəhbərlərin təkidi ilə Azərbaycan memarlıq üslubunu pozan tarixi məhəllələrin yerində, eləcə də şəhərin mərkəzi hissəsində beşmərtəbəli binalar tikilmişdi.

Prezident İlham Əliyev bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol verməli olmaz". Azərbaycan Prezidenti bəyan edib ki, Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir: "Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

## "TRT Haber" telekanalı Azərbaycanla bağlı xüsusi reportaj yayıb




"TRT Haber" telekanalı Azərbaycan ilə bağlı xüsusi reportaj yayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin açıqlamaları əsasında hazırlanmış reportajda Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı qələbəsi və sonrakı proseslərdən bəhs olunub.







Reportajda Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri, bölgədə sülhün qorunmasında Türkiyənin yeri və rolu, Bakıda keçirilən hərbi parad, təcavüzkar Ermənistanın işğalçılıq siyasətinin acı nəticələri, işğaldan azad olunan ərazilərimizin, o cümlədən Şuşa şəhərinin yenidən qurulması istiqamətində qəbul olunan qərarlar və görülən işlər barədə türkdilli ictimaiyyətə müfəssəl məlumat verilib.

## Mikayıl Cabbarov: SOCAR yeni inkişaf dövrünə qədəm qoyacaq



Dövlət Neft Şirkətinin (SOCAR) Müşahidə Şurası qurumun idarə heyəti ilə əməkdaşlıq müstəvisində fəaliyyət göstərəcək. AZƏRTAC xəbər verir ki, bu sözləri iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib. Nazir qeyd edib ki, Azərbaycanın neftlə bağlı tarixi ənənələri və SOCAR-ın ölkə iqtisadiyyatında rolu yeni inkişaf dövrünə qədəm qoyacaq.

## Ermənistan MN yüzlərlə cəsədi soyuducularda gizlədir



Ermənistanda Qarabağ cəbhəsində övladlarını itirən və hələ də cəsədlərini geri ala bilməyən, bununla bağlı etiraz aksiyaları keçirən valideynlər növbəti faktla qarşı-qarşıya qalıblar. SİA-nın məlumatına görə, erməni teleqram kanallarında və digər sosial şəbəkə seqmentlərində bildirilir ki, üzə çıxan fakt dəhşət doğurur. Belə ki, Metsamor şəhərinin morqu qarşısında "Spayk" şirkətinə məxsus mobil soyuducular aşkarlanıb. Şəhər sakinlərinin bildirdiklərinə görə, soyuducularda cəbhədə öldürülmüş əsgər və zabitlərin meyitlərinin qalıqları saxlanılır və onların tanınması hələ də mümkün olmayıb. Erməni saytı "Faktinfo"ya məsələ ilə bağlı açıqlama verən Ermənistan MN-nin səlahiyyətliləri bildiriblər ki, soyuducular nazirliyin ehtiyacı əsasında təyin edilən yerə çatdırılıb.

***Rövşən***

## Arman Babacanyan: "AŞPA-da erməni diplomatiyası məğlubiyyətlə üzləşdi"



"Ermənistan Milli Məclisinin sədri Ararat Mirzoyana məhkumlarla bağlı Milli Məclisin əlaqələndirici orqanının yaradılması təklifini təqdim edəcəyəm." SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistan Respublikasının Milli Məclisinin deputatı Arman Babacanyan deyib. Erməni deputat üzləşdikləri məğlubiyyətlərini etiraf edib. "Bu gün Xarici İşlər Nazirliyinin mərkəzi aparatı, Ermənistan Respublikasının Avropa Şurasındakı Daimi Nümayəndəliyi və AŞPA-dakı erməni nümayəndə heyəti ilə təmsil olunan erməni diplomatiyası qəbuledilməz məğlubiyyətlə üzləşib. Əminəm ki, bütün səlahiyyətli orqanlar birgə, koordinasiyalı iş formatını rəhbər tutsaydı bu məğlubiyyətdən qaçmaq olardı", deyə Arman Babacanyan bildirib.

***İnam Hacıyev***



# Azərbaycanlı alimlərin məqaləsi "Diplomatic Insight" jurnalında çap edilib

***Birləşmiş Millətlər Təşkilatının 75-ci ildönümü münasibətilə BMT-nin Rəhbər Nümayəndələrinin, Beynəlxalq Təşkilatların rəhbərlərinin, tanınmış alimlərin və Pakistanda çalışan müxtəlif ölkələrin səfirlərinin məqalə və mesajları Pakistan İslam Respublikasının nüfuzlu "Diplomatic Insight" jurnalının xüsusi buraxılışında nəşr etdilmişdir.***

Jurnalda BMT-nin baş katibi Antonio Quttereşin, Pakistan İslam Respublikasının Presidenti Dr. Arif Əlvinin, Baş nazir İmran Xanin, BMT-ın Baş katibinin müavini və icraçı direktoru, BMT-nin İqtisadi və Sosial məsələləri üzrə katibi xanım Armida Salsia Alisjahbananın məqalələri ilə yanaşı AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun professoru Sakit Hüseynovun və fəlsəfə doktoru Zöhrə Əliyevanın "What is the Future for the UN? or "The World is more than Five" adlı məqaləsi də çap edilmişdir.




### BMT-NİN GƏLƏCƏYİ NECƏ OLACAQDIR? YAXUD "DÜNYA BEŞDƏN BÖYÜKDÜR"

Baş qərargahı Nyu-York şəhərində yerləşən Birləşmiş Millətlər Təşkilatı (BMT) dünya ölkələrində sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı, insan hüquqlarının müdafiəsi məqsədilə yaradılmış ən böyük səlahiyyətli beynəlxalq təşkilatdır.

BMT-nin yaranması 1 yanvar 1942-ci il tarixində ABŞ Prezidenti Franklin Delano Ruzveltin təklif ilə meydana çıxmışdır. BMT-ninNizamnaməsi isə 1945-ci il 26 iyun tarixində San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və 1945-ci il 24 oktyabrda qüvvəyə minmişdir.

BMT-nin Təhlükəsizlik Şurası (BMT TŞ) - BMT-nin daimi fəaliyyət göstərən ali orqanıdır. BMT-nin Nizamnaməsinə görə Təhlükəsizlik Şurası beynəlxalq miqyasda sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. Şuranın 15 üzvü vardır: onlardan beşi daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10-u isə 2 il müddətinə seçilən qeyri-daimi üzvlərdir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. Qeyd edək ki, Azərbaycan 1992-ci ildən BMT-nin üzvüdür.

Təəssüflər olsun ki, ali insani məqsədlərə xidmət etmək üçün yaradılmış bu beynəlxalq qurum tərəfindən qəbul edilmiş qərarlar və qətnamələrin bəziləri həyata keçirilmir. Buna misal olaraq, 1991-1994-cü illər ərzində ermənilər tərəfindən Azərbaycan ərazisində yerləşən Dağlıq Qarabağda və ona bitişik rayonlarda, baş vermiş döyüş əməliyyatları zamanı1.557 Azərbaycanlı hərbçi şəhid edilmiş, dinc əhaliyə qarşı soyqırım siyasəti həyata keçirilmişdir. Azərbaycanlıların yaşadığı Xocalı şəhərində 1992-ci ilin 25-26 fevral tarixində ermənilər tərəfindən faşıst qəddarlığı ilə törədilən soyqırım zamanı, əksəriyyəti qadınlardan və uşaqlardan ibarər olan 700-dən artıq azərbaycan vətəndaşına qarşı cinayət törədilmişdir. Həmin vaxt 336 saylı rus alayının bilavasitə iştirakı və dəstəyi ilə ermənilər Xocalıdakı bütün mülki əhalini qətlə yetirərək XX əsrdə insanlıq adına ləkə gətirən qanlı genosid törətmişlər. 1993-cü ildə Ermənistan Respublikasının hərbi qüvvələri Azərbaycanın tərkibində yerləşən Qarabağı və ona yaxın 7 rayonunu işğal etmişdir. İşğal nəticəsində 1 milyondan çox insan bu ərazilərdən qovulmuş, öldürülmüş və əsir götürülmüşdür.

Bundan sonra 1993-cü ilin əvvəllərində Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi haqqında BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Lakin Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinin dərhal və qeyd-şərtsiz azad edilməsi haqqında BMT-nın Təhlükəsizlik Şurasının 4 qətnaməsi bu günə kimi icra edilməmişdir. BMT-nin Təhlükəsizlik Şurasının həmin 4 qətnaməsi aşağıdakılardır:

1) http://unscr.com/en/resolutions-/doc/822; (30.04.1993-cü il)
2) http://unscr.com/en/resolutions-/doc/853; (29.07.1993-cü il)
3) http://unscr.com/en/resolutions-/doc/874; (14.10.1993-cü il)
4) http://unscr.com/en/resolutions-/doc/884(12.11.1993-cü il).

BMT-nin Təhlükəsizlik Şurasının təsdiq etdiyi yuxarıda göstərilən dörd qətnamənin uzun illər (27 il) icra olunmadığına görə Ermənistanın işğalçı ordusu Azərbaycana mənsub olan Dağlıq Qarabağ və 7 rayonu 27 il işğal altında saxlamışdır. BMT-nin Təhlükəsizlik Şurasının üzvü olan dövlət rəhbərlərinin hazırki şəraitdə dünya əhalisinə ikili standartlar tətbiq etməsinin XXI əsrin tələb və çağırışlarına cavab vermədiyi göz qabağındadır.

Münaqişə tərəfləri arasında sülhün bərqərar olması məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyəti isə 1994-cü ildən indiyə kimi heç bir müsbət nəticəyə gətirib çıxarmamışdır. 1994-cü ildən indiyə kimi - 26 il ərzində BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan - Rusiya, Çin, İngiltərə, Fransa və ABŞ Ermənistanı beynəlxalq hüquq normalarına riayət etməyə təsir göstərə bilməmişlər. Ümumiyyətlə Qarabağ münaqişəsində ermənilərin beynəlxalq qanuna zidd hərəkətlərinə qarşı BMT Təhlükəsizlik Şurası heç bir ciddi addımlar atmamışdır. Bütün bunlar BMT-nin regional münaqişələrin nizama salınmasında fəaliyyətinin zəifliyi, qəbul etdiyi qətnamələrin yerinə yetirilməməsi və bu təşkilatın siyasi böhran keçirdiyinin göstəricisidir. Təşkilatın fəaliyyətində kiçik dövlətlərin hüquqları veto hüququna malik olan dövlətlərin maraqlarına uyğun olaraq bir çox hallarda məhdudlaşdırılır. Təhlükəsizlik Şurasının veto hüququna malikolan 5 üzvi BMT-nin əsas orqanlarının hər birində iştirak edərək öz milli maraqlarına müvafiq olaraq qərarların qəbul edilməsinə mühim təsir göstərirlər. Beynəlxalq təhlükəsizlik sisteminin beş hegemon dövlət tərəfindən birtərəfli qaydada deyil, dünya dövlətlərinin birgə səyləri ilə təkmilləşdirilməsi hazırda aktuallıq kəsb edir.

BMT-də qərarların qəbul edilməsi prosesinə ABŞ-ın, Rusiyanın, yaxud da digər daimi üzvlərin təsir etməsi, onların başqa dövlətlərin daxili yurisdiksiyasında olan məsələlərə müdaxilə etmələri, beynəlxalq hüquq normalarına riayət edilməməsi bu gün BMT-nin nüfuzunun itirilməsinə səbəb olmuşdur.

Məlum olduğu kimi, ABŞ-ın "Ərəb baharı" adı altında başladığı hərbi münaqişə,neftlə zəngin olan, əlverişli coğrafi-siyasi mövqedə yerləşən Yaxın və Orta Şərqin bəzi ölkələrinin işğalına yönəldilmişdir.

Bundan başqa, Rusiya yeni müstəqil dövlətlər birliyi (MDB) üzərində öz hökmranlığını bərpa etmək iddialarını davam etdirməkdədir. Məsələn,Rusiya Cənubi Qafqazda olan münaqişələrdə, o cümlədən Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində vasitəçilik missiyasından istifadə edərək, geosiyasi, geoiqtisadi və başqa maraqlarını təmin etmək üçün faydalanmağa çalışır.Buna misal olaraq, Cənubi Osetiyanın, Abxaziyanın müstəqilliyini tanımaqla, Krımı işğal etməklə, Gürcüstanın və Ukraynanın ərazi bütövlüyünü pozur. Rusiya Moldovada Dnestryanı bölgədə münaqişənin həllini öz əlində saxlamağa çalışır və hələ ki buna nail olur.

Azərbaycan Beynəlxalq Hüquq qaydalarına əməl edərək ATƏT-in Dağlıq Qarabağ məsələsinin Minsk qrupu üzvlərinin vasitəciləri tərəfindən həllinə üstünlük vermiş, bununla da hər iki tərəfdən insan itkiləri olmadan məsələnin öz ədalətli həllini tapacagına ümid etmişdir. Əfsuslar olsun ki, göstərilən bütün səylərə baxmayaraq Ermənistan hökuməti nəinki, bircə rayon ərazisini boşaltmaq niyyətində olmamışdır əksinə, rəsmi İrəvanın rəhbərliyi, hər vasitə ilə danışıqların konstruktiv məcrada davam etməsinə maneəler törətmişdir. Ermənistan Azərbaycana qarşı yeni aqressiv davranış nümayiş etdirərək əlavə ərazilərin də işğal olunacağını bəyan etmişdir.

Buna misal olaraq, Ermənistan 2016-ci ilin aprel ayında və 2020-ci ilin iyul ayının 12-23-nə qədər ərazilərimizə soxulmağa bir neçə dəfə cəhdlər etmişdir. Bunun nəticəsində xeyli vətəndaşlarımız tələf edilmiş və yaralanmışdır. Bundan başqa 2020-ci ilin 27 sentyabr ayında Ermənistan qoşunları Azərbaycan ərazisini müxtəlif silahlarla atəşə tutmuşdur, Azərbaycan Silahlı Qüvvələri özünü müdafiə məqsədilə erməni terrorçularını susturmuşdur. Minsk qrupunun üzvlərinin vasitəsilə Azərbaycan ərazisində atəşkəs elan edilmişdir. Buna baxmayaraq 27 sentyabr 2020-ci il tarixdən bugünə kimi erməni işğalçıları Azəraycanın dinc əhalisinə - Gəncə, Mingeçevir, Ağcəbədi, Bərdə, Goranboy, Gədəbəy, Tovuz, Tərtər Xızı və digər şəhərlərin mülki əhalisinə atəş açmışlar. Bunun nəticəsində 43 nəfər dinc sakin həlak olmuş və 218 nəfər ağır yaralanmış, çoxlu yaşayış evləri, sosial obyektlər məhv edilmişdir. Bütün deyilən bu faktlar KİV vasitəsilə dünya əhalisinə yayılmışdır.

Göstərilən bu faktlar BMT-ə və onun mühüm tərkib hissəsi olan Təhlükəsizlik Şurasının zəif fəaliyyəti və bu Şuraya daxil olan beş hegemon ölkənin təkidi və tələbi ilə yürüdülən ikili standart siyasətinin geniş təzahürünü göstərir. Bu faktlar onu göstərir ki, artıq BMT Təhlükəsizlik Şurasında ciddi təşkilati və siyasi islahatların aparılmasının zəruriliyi meydana çıxmışdır.

Türkiyə Respublikasının Presidenti Rəcəb Tayyib Ərdogan BMT Təhlükəsizlik Şurasında islahatlar edilməsinə çağırışlar etmişdi. Bu çağrışlarda yeddi milyarddan artıq olan dünya əhalisinin, o cümlədən iki milyarda yaxın müsəlman ölkələri əhalisinin təleyinin BMT-ninTəhlükəsizlik Şurasının beş daimi üzvünün qəbul etdiyi qərarlarından asılı olmasını bəyan etmişdir.Təhlükəsizlik Şurasının yalnız beş daimi üzvünün veto hüququna malik olmasına işarə edən Prezident Ərdoğan bunun dünya dövlətləri üçün qeyri ədalətli nəticələrə səbəb ola biləcəyini önə çəkərək, "DÜNYA BEŞDƏN BÖYÜKDÜR" şüarını irəli sürmüşdür.

Bütün yuxarıda deyilənləri fəlsəfi cəhətdən ümumiləşdirsək BMT-nin Təhlükəsizlik Şurasının tərkibinin genişləndirilməsi zərurəti meydana çıxmışdır. İndiki geosiyasi vəziyyəti nəzərə alaraq, planetimizin bütün bölgələrinin sosial-hüquqi mənafeyini nəzərdə tutmaqla, veto hüququ olan 5 ölkənin 15 ölkə sayına çatdırılması məqsədəmüvafiqdir və həmin tərkibə, mütləq surətdə müxtəlif dini və milli mənsubların da daxil edilməsini məqbul hesab edirik.



CONTENTS

05
Message H.E. Mr. António Guterres
Secretary General, The United Nations

06
Message, H.E. Dr. Arif Alvi, President
Islamic Republic of Pakistan

07
Message, H.E. Imran Khan, Prime
Minister, Islamic Republic of Pakistan

08
Message, H.E. Ms. Armida Salsiah
Alisjahbana, the United Nations Under-Secretary-General and Executive
Secretary of the UN Economic and Social
Commission for Asia and the Pacific.

09

20
Message
H.E. Mr. MATSUDA Kuninori
Ambassador of Japan to Pakistan

22
Message, H.E Mr. Ahmad Rabaie,
Ambassador, Embassy of State of
Palestine

24
Message H.E. Mr. Paulo Neves Pocinho
Ambassador of Portugal to Pakistan

25
Message H.E Mr. Piotr Opalinski
Ambassador of Republic of Poland to
Pakistan

26

37
Message H.E. Mr. Jeremy Milsom
Representative, UNODC Pakistan

38
H.E. Ms. Noriko Yoshida
Representative, UNHCR Pakistan

39
Message H.E. Mr. Jawed Ali Khan
Programme Manager, UN Habitat
Pakistan

***SAKİT HÜSEYNOV,***
***AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu "Davamlı inkişaf fəlsəfəsi və sosiologiyası" şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, professor***

***ZÖHRƏ ƏLİYEVA,***
***AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu "Beynəlxalq ələqələr" söbəsinin müdiri, fəlsəfə doktoru***

# Qarabağa yeni həyatın gəlməsi istiqamətində daha bir addım







**2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər davam edən II Qarabağ müharibəsi müzəffər Azərbaycan ordusunun möhtəşəm qələbəsi ilə başa çatdı. Nəticədə Azərbaycan xalqı düşmən üzərində çaldığı böyük Zəfərlə öz ərazilərini Ermənistanın işğalından azad etdi.**

Ölkəmizin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün pozulmuş beynəlxalq hüququn bərpasının nümayişi kimi yadda qaldı, yeni Azərbaycan BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini həyata keçirdi. Ancaq erməni qəsbkarları tərəfindən otuz ilə yaxın bir müddət ərzində işğal olunmuş ərazilərimizin maddi və mədəni sərvətləri talan edilmiş və dağıdılmışdır. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən normal həyata qaytarılması Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il Fərmanı əsasında "Qarabağ Dirçəliş Fondu" publik şəxs yaradılıb.

Qarabağ Dirçəliş Fondunun əsas məqsədi Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirməkdir.

İşğaldan azad edilmiş ərazilərdə dayanıqlı, davamlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi də başlıca məqsədlərdəndir. İşğaldan azad edilmiş rayonlara Prezidentin xüsusi nümayəndələrinin təyin olunması bütün göstərdiyimiz bu vəzifələrin həyata keçirilməsi üçün əlaqələndirici rəhbərlik missiyasının reallaşdırılmasına şərait yaradacaqdır. Artıq Şuşa rayonuna Prezidentin xüsusi nümayəndəsi təyin edilib. Ona görə də orada görülməsi nəzərdə tutulan bütün tikinti, yenidənqurma, təmir, bərpa və abadlıq işləri vaxtında həyata keçiriləcəkdir. Eyni zamanda, xüsusi nümayəndələr görülən işlərin keyfiyyətini, vaxtında təhvil verilməsini diqqət mərkəzində saxlayacaqlar. Qısaca desək, xüsusi nümayəndələrin səlahiyyətləri kifayət qədər geniş olacaqdır.

Yaz açılan kimi yerli və xarici şirkətlər işğaldan azad edilmiş ərazilərimizdə tikinti və təmir-bərpa işlərinə başlayacaqlar. Bunun üçün Azərbaycana dost olan ölkələrin şirkətləri ilə danışıqlar aparılaraq müvafiq razılıqlar əldə olunub. Yerli şirkətlərlə bərabər, qardaş Türkiyə, Pakistan, İran və İtaliya şirkətləri və iş adamları Qarabağımızın dirçəldilməsində iştirak edəcəklər. Hələlik hazırlıq işləri aparılmaqdadır. Prezidentimizin iradəsi və xalqımızın qadir əlləri ilə düşmən tərəfindən xarabalığa çevrilən yurd yerlərimiz-şəhər və kəndlərimiz qısa müddətdə abadlaşdırılacaqdır. Erməni işğalçıları tərəfindən qarət edilib dağıdılan məscidlərimiz, məktəblərimiz, xəstəxanalarımız, mədəniyyət evlərimiz, körpələr evi-uşaq bağçaları və s. obyektlər yenidən tikilib ucaldılacaq, bölgələrin sakinlərinin istifadəsinə veriləcəkdir.

***Vəli İlyasov***

# "Beşinci kolon"nun təmsilçiləri rüsvayçı duruma düşəcəklər"

**"Azərbaycan xalqı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Qarabağda tarixi qazandı. 44 gün çəkən Böyük Vətən müharibəsi bizim Böyük Zəfərimizlə başa çatdı. Azərbaycan son iki yüz illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxdı. Nəinki Azərbaycanımızın, ümumiyyətlə müsəlman-türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa şəhəri müzəffər Azərbaycan ordusunun rəşadətli qələbəsi ilə özünün azadlığına qovuşdu.**



Əminliklə demək olar ki, 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaq. Şuşa azad edildikdən sonra noyabrın 9-u Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yeksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini yenidən sevindirdi. Beləliklə də, Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi və kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı". Bunu SİA-ya açıqlamasında Qloballaşma və Milli Həmrəylik İctimai Birliyinin sədri Həsən Qarayev deyib.

H.Qarayev bildirib ki, qalib Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş bütün ərazilərdə infrastrukturu yeniləyərək, evlər tikəcək, iş yerləri yaradacaq və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılmasını təmin edəcək: "İşğaldan azad olunacaq torpaqlarımız Azərbaycan iqtisadiyyatında xüsusi paya malik olacaq. Ərazilər üzrə iqtisadi fəaliyyətlər, sərmayə qoyuluşları müəyyənləşəcək. Xüsusilə işğaldan azad olunan ərazilərdə yüksə turizm potensialı yaradılacaq. Araz çayı üzərində "Xudafərin", və "Qız qalası" su elektrik stansiyaları inşa ediləcək. Bu su elektrik stansiyalarının inşa edilməsi nəticə etibarilə işğaldan azad edilən ərazilərimizin elektrik enerjisi ilə təminatına imkan yaradacaq. Bu işlər imkan verəcək ki, Azərbaycan elektrik enerjisi ixrac etmək imkanına malik olsun. Bir sözlə, Prezidentimizin dediyi kimi, Qarabağ cənnətə çevriləcək".

H.Qarayev 44 günlük qələbədən sonra bəzi qüvvələrin "Beşinci kolon" rolunda ölkəmizdə təxribatlar törətməyə, ictimai rəyi çaşdırmağa cəhd etdiklərini bildirdi: "Ancaq həmin pozucu qüvvələr anlamalıdırlar ki, indi Azərbaycan çox güclüdür. Yəni, 1990-cı illərin Azərbaycanı deyil. Xalq hər şeyi çox gözəl bilir və ağı-qaradan seçməyi də bacarır. Əldə olunan nailiyyətlər sırasında təhlükəsizlik, güclü ordu, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah öndə gəlir. 44 günlük zəfərdən sonra cəmiyyətdə uğurlara kölgə salamağa ümid bəsləyən "Beşinci kolon"nun tör-töküntüləri başa düşməlidirlər ki, Azərbaycanın güclü ordusu var və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə hazırdır, necə ki torpaqlarımızı qısa müddətdə işğaladan azad etdi. Xalq-iqtidar birliyi bütün problemləri adlayacaq və Qarabağı dilbər güşlərdən birinə çevirəcək. Əminəm ki, yaxın vaxtlarda insanlarımız Xankəndinə, Xocalıya, Xocavəndə, Şuşaya, Hadruta, Kəlbəcərə və digər ərazilərimizə köçürüləcəklər. "Beşinci kolon"nun təmsilçiləri və onların dəstəkçiləri isə bir daha xar olacaq və rüsvaçı duruma düşəcəklər".



# Ermənistan ordusunun təminatındakı problemlər kriminal fəsadlar yaradır

Ermənistan ordusunun hərbi hissələrinin təminatında yaranan problemlər ümumilikdə bölmələrin fəaliyyətini iflic edir və kriminal fəsadlar yaradır.

AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, əşya, əmlak, ərzaq, yanacaq-sürtkü materiallarının, eləcə də tibbi ləvazimatların qıtlığı ilə üzləşən şəxsi heyət arasında oğurluq, intizamsızlıq və kütləvi davalar baş verir. Bu günlərdə Ermənistanın Koxb yaşayış məntəqəsində yerləşən 543-cü əlahiddə motoatıcı alayda insident yaşanıb. Hərbi hissədə gənc əsgərlərə daha çox xidmət edən əsgərlər arasında kütləvi dava baş verib. Hadisəyə səbəb isə gənc əsgərlərə verilən yeni əşyaların əllərindən alınaraq əvəzinə köhnələrinin, hətta istifadəyə yarasız olanların verilməsidir.

Faktla bağlı Ermənistan ordusunun 3-cü ordu korpusunun qərargahından bir neçə yüksək rütbəli zabit təcili olaraq Koxb məntəqəsinə gələrək hadisə ilə bağlı araşdırma aparıb.

Hadisə hüquq-mühafizə orqanlarından gizlədilsə də, faktla bağlı zabitlər də daxil olmaqla bir neçə nəfərin cəzalandırıldığı bildirilir. Bir neçə əsgərin isə xidmət yerinin dəyişdirilməsi barədə göstəriş verilib.

# Türkiyədən Bakı-Tbilisi-Qars dəmir yolu ilə Rusiya və Çinə ixrac qatarları yola düşəcək



**Türkiyədən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu ilə Rusiya Federasiyasına ixrac yük qatarı yanvarın 29-da Ankaradan yola düşəcək.** AZƏRTAC Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyinə istinadla xəbər verir ki, bu münasibətlə Türkiyə paytaxtında rəsmi yolasalma mərasimi təşkil olunacaq. Bildirilir ki, Ankara-Moskva konteyner qatarı Türkiyə vaxtı ilə 10:00-da yola düşəcək. On beş vaqonun qoşulduğu qatar ümumilikdə 4 min 650 kilometrlik polad magistralı 8 günə qət edəcək. Eyni gün Bakı-Tbilisi-Qars dəmir yolu ilə Ankara-Sian yük blok qatarı da yola düşəcək. Qatar iki qitə, iki dəniz və 5 ölkə keçməklə mənzil başına qədər ümumilikdə 7 min 792 kilometr yol gedəcək.

# Xalqın çətin anlarının Prezidenti

**Ölkə rəhbəri İlham Əliyev son 17 il ərzində Ümummilli Liderin əsasını qoyduğu siyasi kursu müasir dövrün çağırışlarına uyğun daha da inkişaf etdirərək hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etməkdədir.**

Bu gün Ulu Öndər Heydər Əliyevin axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri xalqın birliyi və dəstəyi ilə Prezident İlham Əliyev başa çatdıraraq Azərbaycanı qüdrətli dövlətə çevirməklə yanaşı, işğalçı Ermənistanın işğalı altında olan doğma torpaqlarımızı - Qarabağı özümüzə qaytardı.

Dahilərin dediyi kimi, xalqları dünyada məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, belə nadir şəxsiyyətlərdən biri, müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirib. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyən Ulu Öndər Heydər Əliyevin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi İlham Əliyevin 17 illik prezidentlik fəaliyyətinin qısa təhlili belə bu fikrin təxmin deyil, qəti qənaət olduğunu sübut edir. Ümummilli Liderin müəyyən etdiyi strategiyanı uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

### Xilaskarlıq missiyası- Qarabağ Azərbaycandır!

Ötən 17 il ərzində Prezident İlham Əliyev atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayıb. Bədbəxt hadisələr, müharibə zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir.

Tariximizin ən böyük xilaskarlıq missiyasını isə Ulu Öndərin davamçısı, yeni dövrün yeni rəhbəri cənab İlham Əliyev yerinə yetirdi! Ulu Öndərimizin vəsiyyətlərində dediyi kimi, Onun yarımçıq qalmış işlərini başa çatdırmaqla, Azərbaycanı müasir və qüdrətli dövlətə çevirməklə, xalqın ən müqəddəs arzusunu - Qarabağ Azərbaycandır! ifadəsini reallaşdırdı, 30 illik torpaq həsrətinə son qoydu.

Bəli, 30 il idi deyirdik ki, gün gələcək, torpaqlarımızı, doğma ata-baba torpaqlarımıza qayıdacağıq. Qayıtdıq, Ulu Öndərimiz! Qaytardı varisiniz, Qalib Liderimiz, Prezidentimiz, hər bir azərbaycanlının Prezidenti İlham Əliyev cənabları qaytardı Qarabağı! Gün o gün olmadı, gün bu gün oldu! Xalqımızın ən böyük ağrısı, sağalmaz yarasına Xilaskar Sərkərdəmiz İlham Əliyev məlham qoydu! BMT qəbul etdiyi dörd qətnaməni yerinə yetirə bilmədi, ATƏT-in Minsk qrupu uğursuz fəaliyyəti, digər beynəlxalq qurum və təşkilatlar beynəlxalq hüququn norma və prinsiplərini, ədaləti təmin etməkdə acizlik göstərdi, Ermənistan isə sülhdən boyun qaçırdı.

Ancaq belə bir mürəkkəb məqamda həm dünya miqyaslı nüfuzlu siyasi xadim, həm mahir diplomat, həm də qətiyyətli sərkərdə kimi meydana girən Prezident İlham Əliyev bir həmlə ilə işğal altındakı torpaqlarımızı düşməndən azad etdi!

### "Bizim yumruğumuz bizim birliyimizdir!"

Bəli, "Bizim yumruğumuz bizim birliyimizdir!", - deyən Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev



çıxışlarında dəfələrlə bildirib ki, haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır: "Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır".

Bu gün məhz o gücünü, birliyin nəticəsidir ki, 30 il işğalçı Ermənistanın çirkin niyyətlərini alt-üst etdi. Ali Baş Komandanımız İlham Əliyev cənablarının yerli və xarici televiziya kanallarına verdiyi müsahibələrində, xalqa müraciətlərində səsləndirdiyi hər bir bəyanatda 30 ilə yaxın müddətdə dünya dövlətlərinin siyasi iradə ortaya qoymamalarının yol açdığı sual doğuran və dəqiq cavabını axtaran məqamlar öz əksini tapıb. Real həqiqətlər bir daha bu gerçəkliyə işıq salır ki, zaman keçdikcə baş verən hadisələrin mahiyyəti daha dərindən dərk olunur, haqqın, ədalətin maraqların arxasında necə əridiyi aydın görünür. Bu gün dünyaya edilən "həqiqətə həqiqət gözü ilə baxaq" çağırışı ermənilər və onların havadarlarını narahat etsə də, unudulmamalıdır ki, beynəlxalq hüquq normaları və prinsipləri deyilən məfhum mövcuddur ki, onlara böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlər əməl etməli, yanaşmalarında əsas götürməlidirlər.

### Azərbaycanın uğurlarının gölgəsində alışıb yananlar

Ancaq bu gün Azərbaycanın uğurlarının gölgəsində alışıb yananlar - AXCP sədri, satqın, cinayətkar Əli Kərimli-C.Həsənli kimi anti-milli ünsürlər hələ də həyasızcasına dövlətə, xalqa, Azərbaycanın uğurlu inkişafına qara yaxaraq elə zənn edirdilər ki, bu əxlaqsızlıqları ilə xalqın dəstəyini bəlkə "qazanacaqlar".

Ancaq anlamırlar ki, bu 28 ildir ki, "müxalifət" adı ilə bu satqınlar dövlətə, xalqa, Azərbaycanın uğurlarına qara yaxanlar elə zənn edirdilər ki, bəlkə bu əxlaqsızlıqları ilə xalqın dəstəyini "qazandılar". Ancaq onların bu "arzusu" "qaşınmayan yerdən qan çıxarmaqla" xalqın nifrətini birə-on artırır.

Prezident İlham Əliyev yanvarın 27-də Rəşad Nəbiyevi nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çıxışı zamanı torpaqlarımızı satanların - AXC-Müsavat cütlüyü olduğunu bir daha bildirdi: "Şuşanın 1992-ci il mayın 8-də itirilməsi böyük faciə idi. Bu faciənin günahkarları AXC-Müsavat cütlüyüdür. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı, o vaxtkı hakimiyyəti yıxmaq üçün bu təxribatı törətdi, Şuşanı faktiki olaraq düşmənə təhvil verdi. O vaxt Azərbaycan müdafiə naziri AXC-Müsavat cütlüyünün törəməsi idi, onların quyruqlarından idi. Şuşanı satan birinci o olmuşdur. Sonra da demişdi ki, mənim günahım yoxdur. Necə sənin günahın yoxdur, satqın, xain. Demişdi ki, Şuşa əldən getsə, başıma güllə çaxacağam. Bu günə qədər də bu gülləni çaxmayıb öz satqın başına. AXC-Müsavat cütlüyü öz çirkin niyyətlərinə çatıb. Şuşa və ondan bir neçə gün sonra Laçın rayonunun işğal altına düşməsi nəticəsində o vaxtkı hakimiyyət kənarlaşdırılıb və hərbi çevriliş nəticəsində AXC-Müsavat hakimiyyətə gəlib. Ondan sonra Şuşanı unudub, Şuşanı faktiki olaraq ermənilərə bağışlayıb və sonra digər xəyanət törədib - 1993-cü ilin aprel ayında Kəlbəcəri düşmənə təhvil verib. Günahsız, əliyalın insanları orada tək qoyub, xilas edə bilməyib, qoruya bilməyib. Ondan sonra da nə edib?! Fərarilik edib, qaçıb. Ali Baş Komandan fərari, dövlət katibi fərari, parlamentin sədri fərari, digər fərarilər qaçıb gizləndilər, biri Kələkidə, biri xaricdə. Əgər müharibə dövründə Ali Baş Komandan qaçırsa, bunun adı fəraridir, başqa adı yoxdur. Hamı bunu bilməlidir, heç kim bunu unutmamalıdır".

Bəli, Azərbaycan xalqı heç nəyi unutmayıb da! Onu da unutmayıb ki, əgər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, dövlətçilik əldən gedəcəkdi.

Bunu xalqa müraciətində Prezident İlham Əliyev deyərək bildirmişdi ki, öz laxlamış hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsi başlamışdılar: "Bunu heç kim unutmasın! Bilməyənlər bilsinlər və gənc nəsil bunu bilsin, kim bizi bu bəlaya saldı? Kim bu bəlanın səbəbkarıdır? Kim bir milyon insanın ağır vəziyyətə düşməsinin səbəbkarıdır? O vaxtkı Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti".

Və bu gün bu uğurlu siyasətə qara yaxmağa çalışan, yalan və manipuliyasiyalarla insanların fikirlərini dəyişdirməyə can atan məkrli xarici qüvvələri və nüfuzdan düşmüş radikal müxalifətin anti-Azərbaycan təbliğatını mənasız və əsassızdır. Bütün bunları xalqımız görür və öz Prezidentinin yanındadır. Çünki ölkə Prezidentinin də qeyd etdiyi kimi: "Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Çünki bir azərbaycanlı üçün onun torpağı, bayrağı müqəddəsdir, qeyrətdir, namusdur. Kiçik yaşlı azərbaycanlıdan tutmuş yaşlısına qədər hər kəs bayrağını daim əlində və başının üzərində tutar, himnini oxuyanda həyəcanlanar, qürrələnər. Amma Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli, Arif Məmmədov, Qənimət Zahid kimi bandit, vətənsüvənlər erməni qoltuğuna sığınmaqla, tula payına görə mənliklərini alçatmağı üstün tuturlar. Daha doğrusu, üzələrinə tüpürsələr də, o biri üzlərini çevirən alçaq və mənəviyyatsızlardır.

Bundan sonra isə söz xalqındır. Əsgərimizə, dövlətimizə şər atan bu şər atanlar yığımı olanlara xalq sözünü deməli, onlara yerini göstərməklə yanaşı, əlbəttə ki, hüquq-mühafizə orqanları da belə məsələlərə biganə qalmamalıdır. Vətən, dövlət, xalq xainləri, düşmənə işləyən bu satqınlar yığnağı hüquqi çərçivədə də cavablarını almalıdırlar. Çünki xalqımızın və dövlətimizin maraqlarına qarşı çıxmaq Vətənə xəyanətdən başqa heç nə deyil! İnanırıq ki, Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar!

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

## YAP Masallı rayon təşkilatının üzvləri şəhid ailələrini ziyarət ediblər

YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev və təşkilatın bir qrup fəali Vətən müharibəsində canını fəda etmiş şəhidlərin ailələrini ziyarət ediblər. Rayonun Çaxırlı və Xırmandallı kəndindən olan Cəbrayıl Qasımov, Məhəmməd Vəliyev, Murad Nefesov və Ziya Gözəlovun ailəsini ziyarət edən təşkilatın sədpri və nümayəndələri xalqımızın, şəhidlərin əziz xatirəsini daim uca tutduğunu, dövlətimizin bu ailələrə daim diqqət mərkəzində saxladığını, onların sosial vəziyyətinin yaxşılaşdırılması üçün həyata keçirilən layihələrdən danışıb. Həmçinin görüş zamanı Vətən müharibəsi şəhidləri barədə təəssüratlar dinlənilib, torpaqlarımızın qorunması uğrunda canından keçən Vaqifin hünərinin hər bir gəncə örnək olması və hər bir Azərbaycan vətəndaşının öz qəhrəmanlarını tanımasının vacibliyi qeyd edilib. Görüşdə dövlətimizin şəhid ailələrinə qayğısından razılıq ifadə olunub.



***R.HÜSEYNOVA***

## 2021-ci il tənhalığa qarşı mübarizə ili olacaq?



Ölkəsinin ən böyük investorlarından biri olan Norveçin aparıcı telekommunikasiya şirkəti "Telenor"-un mütəxəssisləri tənhalığa qarşı mübarizəni gələn ilin əsas tendensiyası adlandırıblar. Şirkətin yayımladığı icmalda qeyd olunur ki, dünyada subay insanların sayı koronavirus pandemiyasının başlaması ilə nəzərə çarpacaq dərəcədə artıb ki, bu da cəmiyyətin psixoloji sağlamlığına kəskin təsir edir. Şirkətin açıqlamalarına diqqət çəkən SİA bu açıqlamalardakı bəzi nüansları oxucularının diqqətinə catdırır. Arxada qalan 2020-ci ilin tənhalığın cəmiyyətdəki əsas sağlamlıq problemi olduğunu göstərən norveçli mütəxəssislər 2021-ci il üçün ümidli olduqlarını bildirirlər. Onların fikrincə, yüksək texnologiyalı ölkələr qısa müddətdə holoqrafik rabitədə genişlənmiş və virtual gerçəklikdən istifadə nümunələrini görəcəklər. Belə ki, subay insanlara kömək etmək üçün yeni süni intellektlə işləyən "çat botlar" (söhbət botları) bazara çıxarılacaq. Maraqlıdır ki, pandemiya dövründə artıq "çat botlar"a qarçı maraq xeyli artıb. Yeri gəlmişkən bildirək ki, Rusiyada tənhalığa qarşı mübarizədə özünə dost axtaranlar üçün "Realy platforması" mövcuddur.

***Ağasəf Babayev***

# Əli Kərimli-Cəmil Həsənli cütlüyü Türkiyə dəstəyinin əleyhinə çıxıb!



**AXCP və "Milli Şura"nın sədrləri Azərbaycanın Ermənistan üzərində qazandığı qələbəsindən daim ehtiyatlanıb və hətta qorxublar**

**Zaman-zaman "ulu millət" pərdəsi altında çıxışlar edib, özünü "millət sevdalısı" kimi zorla ictimai rəyə sırımağa cəhdlər edən AXCP sədri Əli Kərimlinin əlaltısı, "Milli Şura"nın sədri Cəmil Həsənlinin bu yalanı da üzə çıxıb. Daha dəqiqi, məlum olub ki, hələ Qarabağın işğal altındakı ərazilərimizin azad edildiyi müddətdə o Türkiyə hərbi bazalarının Azərbaycanda fəaliyyəti mümkünlüyünə etiraz edib. SİA xəbər verir ki, sözügedən məsələ ilə bağlı Azərbaycan Naminə Alyans Partiyasının (ANAP) sədri Abutalıb Səmədov fikirlərini açıqlayarkən deyib.**

O bildirib ki, Qarabağda əks-hücum əməliyyatlarından əvvəl Azərbaycanda Türkiyə hərbi bazalarının qurulmasına bir qurum etiraz etdi: "Milli Şura", Cəmil Həsənli dedi ki, Türkiyə hərbi bazalarının qurulması məqsədəuyğun deyil. Bildirdi ki, hərbi əməkdaşlığın 100 forması var, hərbi bazanın da yaradılması onlardan biridir". ANAP sədrinin sözlərinə görə, bu, Cəmil Həsənlinin qəti etirazı idi.

### Əli Kərimli ermənilərlə əl-ələ verib, Avropa Birliyi yolunda birgə şəkildə addımlamağı arzu edirmiş...

Lakin maraqlı məqamlardan biri də budur ki, Cəmil Həsənli ilə yanaşı, AXCP sədri Əli Kərimli də özünü üzdə "milli demokrat" kimi təqdim etsə də, kənarda bilavasitə erməni maraqlarına işləyən qurumlarla gizli, ya da açıq formada əməkdaşlığa gedir. Əbəs deyil ki, Qarabağda Vətən müharibəsi başlamamışdan əvvəl müxtəlif "konsepsiyaları" önə sürən Əli Kərimli Azərbaycanın Ermənistan üzərində qazandığı qələbəsindən daim ehtiyatlanıb və hətta qorxub. O, yaxşı bilib ki, bu, baş verərsə, mövcud hakimiyyətin xalqla birliyi daha da möhkəmlənəcək və bununla onun kirli siyasi maraqları tamamilə uğursuzluğa düçar olacaq. Məsələn, əbəs deyil ki, Avropa Birliyinə aparan yol barədə danışarkən, dolayısı ilə etiraf edirdi ki, həmin yol, məhz ermənilərlə birlikdə gedilməlidir.

### <u>ANAP sədrindən fakt:</u> "Dəhşətli bir plan idi, cəmiyyət isə buna reaksiya vermədi"

Hətta savaş başlayandan az müddət sonra da, o, eyni fikirdə qalıb. SİTAT: "Bir həftə sonra Əli Kərimli bir konsepsiya ortaya qoydu. Qeyd etdi ki, müharibə olmamalıdır, müharibə qandır, hərbi əməliyyatlar böyük itkilərlə müşayiət oluna bilər. Əli Kərimli bildirirdi ki, hakimiyyəti ələ almalıyıq, ermənilərlə birlikdə Avropa Birliyinə getməliyik, Birliyin çətiri altında Qarabağ məsələsini həll etməliyik".

"O vurğulayır ki, Rusiyanın regiondan çəkilməsini gözləmək lazımdır. Dəhşətli bir plan idi, cəmiyyət isə buna reaksiya vermədi. Bizi ATƏT-in Minsk Qrupu 30 il yubatdı, Avropa Birliyində də 30 il gözləməli idik?", deyə Abutalıb Səmədov sual edib.

Reallığa qalanda "milli cəbhə" pərdələnməsi altında yalnız öz kirli məqsədlərinə, şəxsi mənfəətlərinə oynayan bu ünsürlərin, ümumiyyətlə, Qarabağ məsələsini ön planda görmələri inandırıcı təsir bağışlamır. Başqa yandan, müharibədən sonrakı dövr ərzində Əli Kərimli-Cəmil Həsənli cütlüyünün hətta şəhid ailələrindən öz qaranlıq maraqları üçün istifadə etmələri də özü-özlüyündə bir sıra suallar yaradır. Məsələn, yalnız bir neçə şəhid ailəsinə gedərək, orada özlərini reklam etdirən AXCP sədrinin hələ indiyə qədər həmin ailələrin problemləri ilə davamlı şəkildə maraqlanması faktları ortada yoxdur. Bu fakt da onların oyunbaz siyasətlərinin tərkib hissəsidir.

***Rövşən RƏSULOV***

# "Ermənistanın yenidən Azərbaycanla müharibə aparmağa cürəti çatmaz"

*Müsahibimiz Millət vəkili Azər Badamovdur*



***- Azər müəllim, Ermənistan yenidən aranı qarışdırmaq və Qarabağda müəyyən yerlərdə təxribatlar törətməyi planlaşdırır. Sizcə, Ermənistan məkrli niyyətini reallaşdıra bilərmi?***

- Bir tərəfdən Ermənistan Azərbaycanla kommunikasiyaların açılmasından danışır və üçtərəfli bəyanatlara imzalar atır, digər tərəfdən isə özlərinin iyrənc, təxribatçı əməllərindən əl çəkmək istəmir. Görünür, bunlar 44 günlük müharibədə aldığı zərbədən hələ də nəticə çıxarmamışdır. Ermənilərin əməlləri ilə dedikləri heç vaxt uyğun gəlməmişdir. Ona görə də məhv olunub yer üzündən silinmək üzrədirlər. Amma yenə də aranı qarışdırmaq və təxribatlar törətməyini, sanki özləri üçün həyat amalı hesab edirlər. Bu gün Azərbaycanın ordusu ölkəmizdə düşmənin həyata keçirmək istədiyi hər bir təxribatın qarşısını ciddi şəkildə almağına hazırdır. Necə ki, 26 noyabrda Xocavənd rayonu ərazisində keçirilən antiterror əməliyyatı sayəsində onlarla erməni terrorçusunu əsir götürmüşük. Düşünürəm ki, bundan sonra belə fikirli erməni terrorçuları ərazimizdə müəyyən olunarsa yerindəcə məhv edilərək zərərsizləşdirilməlidir. Çünki beynəlxalq qanunlarla mühakimə olunmaq ermənilər üçün deyil. Ümumiyyətlə, bəşəriyyət bu erməni xəstəliyindən sağalmalıdır.

***- Bu günlər Ermənistan Təhlükəsizlik Şurasının iclası keçirilib və iclasa A.Arutunyan da qoşulub. Sizcə, terrorçu başı A.Arutunyanın Təhlükəsizlik Şurasının iclasında iştirak etməsi nədən irəli gəlir?***

- Ermənistan Təhlükəsizlik Şurasının iclasında Arutunyanın iştirak etməsini ermənilərin öz çirkin əməllərindən əl çəkmədiyinin göstəricisi hesab edirəm. Azərbaycan humanistlik göstərərək 10 noyabrda üçtərəfli bəyanat imzalayaraq Dağlıq Qarabağda yaşayan erməni vətəndaşlarının ölkəmizdə yaşamasının davamına imkan yaratdı. Bu məqsədlə Rusiya sülhməramlılarının müəyyən müddətdə təhlükəsizliyin təmin edilməsinə razı olduq. Amma bu, o demək deyildi ki, ermənilər Rusiya sülhməramlılara arxalanıb öz köhnə fikirlərini yenidən gündəmə gətirməlidir. Əgər ermənilər özlərini tərbiyəli aparmasalar, Azərbaycan Rusiya sülhməramlıların ərazimizdə iştirakından imtina edə bilər. Təbii ki, bu, Dağlıq Qarabağda yaşayan arutunyanların sonunu gətirər. Nə qədər gec deyil ermənilər Azərbaycanın humanistliyindən nəticə çıxarıb tezliklə birgə yaşaması üçün təşəbbüs göstərməlidirlər. Əks halda bu, ermənilər üçün yaxşı heç nə verməyəcəkdir.

***- Ermənistanda bəzi revanşist qüvvələr meydana çıxıb və yenidən Qarabağda müharibə aparılması çağırışı ilə çıxış edirlər. Buna münasibətiniz?***

- Belə revanşist şüarların səsləndirilməsi ermənilərin gələcəyi üçün yaxşı heç nə vəd etmir. Ermənilər bəzi xarici dairələrin dəstəyinə arxayınlaşıb belə fikirləri səsləndirdiyini düşünürəm. Onu qeyd etmək istəyirəm ki, 44 günlük Vətən Müharibəsində Ermənistan ordusu məhv olunmuşdur. Baxmayaraq ki, onlar belə şüarlar səsləndirirlər, amma onların müharibə aparmağına güc yığması üçün uzun illər lazım olacaqdır. Bununla yanaşı, Azərbaycan da öz ordusunu daha da gücləndirir və müasir silahlarla təmini davam etdirir. Ona görə də Ermənistanın yenidən Azərbaycanla müharibə aparmağa cürəti çatmaz.

***Gülyana***

# "Milli şura" xarici anti-Azərbaycan dairələrin maşasıdır



**"Milli şura" yarandığı gündən öz antimilli mövqeyi ilə seçilib. Müxalifətin radikal qanadının yaratdığı "milli şura" nın Azərbaycanın milli maraqlarına tam zidd siyasi xətt tutması yeni hadisə deyil. Onlar bütün dövrlərdə açıq-aşkar Azərbaycana qarşı fəaliyyət göstəriblər. Həm 2016-cı ilin Aprel döyüşləri, həm 2020-ci ilin iyul hadisələri, həm də İkinci Qarabağ savaşından sonrakı dövrdə onların anti-Azərbaycan fəaliyyətinin şahidi olmuşuq." Bu fikirləri "İki sahil"ə politoloq Yusif Bağırzadə "milli şura"nın Vətən müharibəsi və ondan sonrakı dövrdə sərgilədiyi mövqeyə münasibət bildirərkən deyib.**

Politoloq qeyd edib ki, "milli şura" adlandırılmasına baxmayaraq, təsis edildiyi ilk gündən antimilli mahiyyət nümayiş etdirməsi bu qurumun fəaliyyətində ana xəttə çevrilib: "Bu qurumun ideologiyasının əsasında da Azərbaycana qarşı təbliğat aparmaq dayanır. Özünü "milli şura" adlandıran qurum həmişə olduğu kimi, 44 günlük Vətən müharibəsində də xəyanətkar missiyasını reallaşdırdı, ermənilərin dəyirmanına su tökməklə cəmiyyəti çaşdırmağa çalışdı. İndi isə müharibənin başa çatmasından sonra da antimilli şura öz çirkin fəaliyyətindən geri qalmayaraq, ağalarının tapşırığı ilə Vətən müharibəsində əldə olunan qələbəyə kölgə salmağa çalışır. Qarabağın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi və tarixi ədalətin bərqərar olunması ilə yekunlaşmış Vətən müharibəsinin nəticələrinin təftiş edilməsi Azərbaycanın düşmənlərinin və onlara havadarlıq edənlərin anti-Azərbaycan təbliğatının başlıca vəzifəsinə çevrilib."

Y.Bağırzadə qeyd edib ki, 1992-1993-cü illərdə Birinci Qarabağ müharibəsini uduzan AXC-Müsavat hakimiyyətinin "milli şura" da təmsil olunan nümayəndələri bu gün bu hərəkətləri ilə anti-Azərbaycan qüvvələrlə bir mövqedə dayanırlar desək, səhv etmərik: "Azərbaycanın düşmənləri ilə eyni mövqe sərgiləyən və elə həmin düşmənlər qədər anti-Azərbaycan təbliğatı aparanların özlərini "milli şura" adlandırması heç bir halda qəbul edilən deyil. 30 il ərzində işğal altında olan torpaqlarımızın işğaldan azad olunduğu, Vətən müharibəsinin tarixi qələbəmizlə başa çatdığı, bütün dünyanın Cənubi Qafqazda tamamilə yeni reallıqların meydana gəlməsi faktı ilə razılaşdığı bir zamanda antimilli şura bəzi maraqlı dairələrin dəstəyi ilə əldə etdiyi təbliğat imkanlarını səfərbər edərək tarixi qələbəmizə inamı sarsıtmağa, xalqın yeni qürur və ilham mənbəyinə şübhə yaratmağa çalışır. Buna isə milli xəyanətdən başqa ad vermək mümkün deyil."

Həmsöhbətimiz əlavə edib ki, 1993-cü ildən hazırkı dövrə qədər daim radikallıqları, antidövlətçilik fəaliyyətləri ilə seçilən qruplar 28 ildən sonra, yəni bu gün də öz köhnə təfəkkürlərində qalmaları ilə yanaşı, həm də "beşinci kolon"un emissarları olduqlarını göstərdikləri fəaliyyətlə sübut edirlər. Anti- Azərbaycan dairələrinin maşası və ölkəmizdəki missionerləri olan "milli şura"çılar əllərinə düşən hər fürsətdə milli maraqlarımıza, dövlətçiliyimizə, sabitliyə, vətəndaş həmrəyliyinə zərbə vurmaq üçün ən çirkin üsul və vasitələrdən istifadə edirlər. Gizli maliyyə dəstəyinin qarşılığında xaricdəki havadarlarının sifariş və tapşırıqlarını canla-başla yerinə yetirən bu antimilli dəstə informasiya texnologiyalarının yaratdığı geniş imkanlardan istifadə edərək ölkəmizə qarşı qarayaxma kampaniyasını hər keçən gün daha da genişləndirərək yerli və beynəlxalq ictimai rəyi çaşdırmaqda davam edirlər. Onların tutduğu bu yol xəyanət yoludur və bu xəyanətlərə görə onlar gec-tez cavab verməli olacaqlar".

***Yaqut Ağaşahqızı***

# Türkiyəyə daha bir partiya S-400 kompleksləri veriləcək



**Amerika hökumətindəki şəxsiyyətlərin dəyişməsi ABŞ xarici siyasətində ciddi bir dəyişikliyə səbəb olmayacaq. Əlbətdə ki, ölkə daxilindəki bütün sahələrdə çoxsaylı ciddi problemlər ABŞ-ın beynəlxalq aləmdəki imkanlarını məhdudlaşdıracaqdır. Lakin ABŞ mümkün qədər öz mənafelərini təmin etdirmək üçün NATO-dakı müttəfiqləri də daxil olmaqla hər kəsə qarşı pis işlər görməyə davam edəcəkdir. Rusiya bundan nə gözləyə bilər? Hərbi mütəxəssis, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko Pravda.Ru-ya müsahibəsində bu məsələləri şərh edib. Müsahibəni təqdim edirik.**



*Əvvəli burada*

https://sia.az/az/news-/politics/850178.html

***- İqor, dediniz ki, Rusiya ABŞ-ın əsas düşmənidir, amma nüvə silahları şansları tarazlaşdırdığından amerikalılar əlbəttə bizimlə döyüşməyəcək, lakin bizi siyasi və iqtisadi cəhətdən zəiflətməyə çalışacaqlar. "Şimal Axını-2"yə yeni hücumlar, Amerikanın düşmənlərinə qarşı sanksiyalar haqqında qanunun istifadəsi, dövlət borcumuza qarşı sanksiyaların tətbiqi və s. Bu, bizi necə təhdid edir?***

- Bütün bunlar fond bazarında vəziyyətin pisləşməsinə, rubl məzənnəsinin azalmasına, inflyasiya mexanizminin yüksəldilməsinə və yaşayış səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər, bu da Rusiya Federasiyasında bir çox vətəndaşlarımız üçün problem yarada bilər.

### ABŞ qarışdırmağa davam edəcək

Sonra isə iqtisadi etirazların, insanların maddi vəziyyətlərindən narazılığının Rusiya Federasiyasındakı siyasi quruluşun dağıdılması üçün siyasi tələblərə çevrilməsi üçün bir mexanizmin işə salınmasına cəhd ediləcəkdir. Hər hansı bir balıq bulanıq sularda tutula bilər.

Mənə elə gəlir ki, ABŞ-ın ən yaxın planları məhz belədir. Üstəlik, Mərkəzi Kəşfiyyat İdarəsinin yeni direktoru vəzifəsinə peşəkar diplomat, ABŞ-ın Moskvadakı keçmiş səfiri- Rusiyanın daxili siyasi mətbəxini, güclü və zəif tərəflərimizi də yaxşı bilən bir adam gəlir.

Üstəlik, o, son illərdə Amerikadakı düşüncə mərkəzlərindən birinə- Karnegi Mərkəzinə rəhbərlik edərək sistem analitikası ilə məşğul olub. Co Baydenin komandasındakı digər insanlar da bu sahədə çox hazırlıqlıdırlar, bəziləri Rusiya üzrə yaxşı mütəxəssislərdir.

### ABŞ-dan yaxşılıq gözləməyin

Bu səbəbdən xüsusi xidmət orqanlarında, Milli Təhlükəsizlik Şurasında, Dövlət Departamentində, Prezident Administrasiyasında əsas vəzifələrə qoyduqları adamlar Rusiya ilə sistemli bir müharibə aparacaq mütəxəssislərdir.

Buna görə onlardan yaxşı və müsbət bir şey gözləmək olmaz. Amerikalıların bizim üçün edəcəyi yeni pis şeylərə hazır olmalıyıq.

Biz də ABŞ-ın postsovet məkanında aktivləşməsinə, hələ də Rusiyanın tərəfdarı olan postsovet dövlətlərində güc nisbətini dəyişdirmək cəhdlərinə hazır olmalıyıq. Ümumiyyətlə, vəziyyət kifayət qədər gözlənilməzdir, amma indikindən daha yaxşı olmayacağı aydındır. Əsas odur ki, indikindən də pis olmasın.

***- Almaniya hələ də çox fəal şəkildə "Şimal Axını 2"-nin qorunmasına və inşasına davam etməyə çalışır. Bəlkə də Almaniyanın bu mövqeyi amerikalıların bu layihəyə qarşı fəaliyyətini dayandıracaq? ...***

- Bir çox firma artıq inşaatdan çıxıb, sığortaçılar sığortalamaqdan imtina edirlər. Tikintini başa çatdıracaq gəmilərə və sahiblərinə belə fərdi sanksiyalar tətbiq olunur. Bu sistemli bir işdir, buna baxmayaraq, layihə nə olursa olsun davam edəcəkdir.

İndi Amerika Birləşmiş Ştatlarının nazirliklərində və idarələrində əsas oyunçu dəyişikliyi olacaq və bundan sonra buna qarşı fəaliyyətləri aydın olacaq. Buna görə də, burada əmsallar hələ 50/50-dir. Hansı payın oynanacağını əvvəlcədən bilmirik - ya "Şimal Axını 2"-yə qarşı, ya da lehinə.

Anlamaq vacibdir ki, indi Konqres Pentaqonda- müdafiə katibi, CIA direktoru, dövlət katibi və s.-də vəzifə alacaq insanları (Amerika qanunverici orqanının müvafiq komitələrində dinləmələrdən sonra) təsdiqləyəcək. Və sonra müəyyən bu siyasətin necə olacağı aydın olacaqdır.

***- Donald Trump prezident olduğu zaman çox vaxt Avropa liderlərini, iş adamlarını və hərbçiləri qıcıqlandırırdı, davamlı olaraq NATO büdcəsinə daha çox pul ödəməyi tələb edirdi. Avropada son illərdə ABŞ siyasətindən narazılıq artdı. Məsələn, Türkiyə getdikcə daha çox müstəqillik nümayiş etdirir. Amerika, Ərdoğanın S-400 almasına qəzəbləndi və Türkiyəyə qarşı hər şəkildə çox təzyiq göstərdi. Vəziyyət necə inkişaf edəcək? Bu tendensiyalar davam edəcək, yoxsa necəsə dəyişəcək?***

- Təzyiq, təbii ki, davam edəcək. Türkiyə S-400 sistemlərini satın alıb, ancaq hələ hazır vəziyyətə gətirilməyib. Və Rəcəb Ərdoğan sanksiyaları ləğv etmək üçün Baydenlə razılığa gəlməsini gözlədiyi barədə bir sıra açıqlamalar verib.

Türkiyə üçün iki məsələ var.

5-ci nəsil Amerika yüngül döyüş təyyarəsi olan "F-35" proqramında davamlı iştirak etmək. Türkiyədə bu layihədə iştirakçı olaraq bu təyyarələrin müəyyən bir partiyasını almalı idi. Yəni, ABŞ Türkiyənin bu təyyarələri almasına icazə verəcəkmi? S-400 almaq üçün başqa bir müqavilə bağlamaq, bununla bağlı danışıqlar artıq son mərhələdədir. Ərdoğan daha bir S-400 polk komplekti almaq istəyir.

### ABŞ bütün cəbhələrdə təzyiq göstərməyə davam edəcək

Oyun davam edəcək və düşünürəm ki, Bayden Trampla eyni mövqeyi tutacaq: təzyiqlər, hədələr. Əlbəttə ki, öz milli istehsalçılarını qoruyacaqlar.

ABŞ-da bütün ölkələrə qəsdən tətbiq etdikləri bir "Patriot" kompleksi var, buna görə S-400-lərimiz onların boğazındadır. Alınması halında təhdidlər yalnız Türkiyəyə deyil, Hindistana da edilir. Lakin biz bu sistemlərin tədarükü üçün 5 milyard dollardan çox müqavilə imzaladıq və həyata keçiririk.

Amerika Birləşmiş Ştatlarının düşmənlərinə qarşı Amerika qanunları, istənilən ölkəyə, hətta NATO üzvlərinə qarşı bərabər şəkildə işləyir.

Buna görə də bəzi daha zəif olan ölkələr ölkəmizlə aktiv hərbi-texniki əməkdaşlıqdan imtina edirlər. Hamısı yox, amma bu kimi nümunələr var.

***Tərcümə:***
***Elçin Bayramlı***

# Erməni paradoksu

"2020-ci ildə Ermənistanda iş yerlərinin orta aylıq sayı 609 min nəfər olub ki, bu da 2019-cu illə müqayisədə 1,2 faiz çoxdur". SİA erməni mətbuatına istinad edərək xəbər verir ki, bu barədə Ermənistanın dövlət gəlirləri idarəsinin təşkilat, monitorinq və nəzarət şöbəsinin müdiri Karen Tamazyan jurnalistlər üçün keçirdiyi mətbuat konfransında bildirib. Əla! Sən demə, planeti bürüyən epidemiya səbəbindən dünyanın aparıcı iqtisdiyyata malik ölkələri geriləməyə doğru getsə də, ələbaxan, miskin Ermənistan tərəqqisindən bir dəqiqə belə qalmayıb.



Əlbəttə, erməni rəsmisi tərəfindən səsləndirilən bu statistika erməni səlahiyyətlilərdən kimin üçünsə ürəkaçan hesab edilə bilər. Amma maraqlıdır, müharibə, koronavirus, iqtisadi böhran və ümumiyyətlə, bütün əsas sosial-iqtisadi parametrlərdə tənəzzül keçirən Ermənistan kimi bir ölkədə yeni iş yerləri necə açıla bilər?

Qeyd edilməlidir ki, burada, əslində, söhbət yeni iş yerləri açmaqdan yox, köhnələrin kölgəsindən çıxmaqdan gedir. Ancaq bu, vəziyyəti qiymətləndirmək baxımından elə də çox dəyişmir. Təsəvvür edin, əgər başqa bir ölkədən danışılsaydı, belə bir vəziyyət paradoksal adlandırıla bilərdi. Lakin ölkədə baş verən qarışıqlığı "məxməri inqilab" adı ilə dünyaya sırıyan hazırkı Ermənistan üçün paradoks təbii bir vəziyyətdir. Maraqlıdır, görən Karen Tamazyan "yeni iş yerləri" ilə bağlı açıqlama verərkən, başbiləni Nikol Paşinyanın həqiqət kimi xalqa sırıdığı yalanlarına istinad edibmi?

Axı, yalan məlumatlarına görə dəfələrlə ifşa olunan Nikol hələ özü ötən ilin aprel ayında ölkədə 73 mindən çox iş yerinin ləğv edildiyini bildirmişdi. Qeyd edilməlidir ki, koronavirusla əlaqədar sonrakı müddətdə Ermənistanda yeni iş yerlərinin açılması ehtimalı da inandırıcı görünmür.

***Ağasəf Babayev***

# ABŞ rus zenith-raket kompleksini oğurlayıb?

"Amerikalılar Liviya Milli Ordusuna məxsus rus istehsalı olan "Pantsir-C1" zenith-raket kompleksini oğurlayıblar". SİA bildirir ki, bu xəbəri "The Times" nəşri yayıb. Analitiklər hesab edirlər ki, indi ABŞ hərbi mütəxəssisləri rusların sənaye imkanlarını öyrənə və əldə etdikləri biliyə əsaslanaraq potensial düşmənlə döyüş əməliyyatlarını simulyasiya edə biləcəklər. Maraqlıdır ki, nəşrdə yer alan məqalə müəllifi deyilənlərlə razılaşmayaraq, bu oğurlugun kompleksin qaçaqmalçıların əlinə keçməməsi üçün həyata keçirildiyini bildirib. Belə ki, müəllif son zamanlar bu ərazilərdə mülki təyyarələrin məhvolma təhlükəsini önə çəkərək, oğurluğu məcburiyyətlə əlaqələndirib.



Qeyd edək ki, məqalə müəllifi atılan addımı "ABŞ hərbi mütəxəssislərinin rusların sənaye imkanlarını öyrənmək istəyi" ilə əlaqələndirənlərlə də razılaşmır. Onun iddiasına görə, amerikalı mütəxəssislər "Pantsir-C1" -ın sənaye imkanlarını Birləşmiş Ərəb Əmirliyi (BƏƏ) vasitəsilə də çoxdan öyrənə bilərdilər. Xatırladaq ki, Liviya xeyli miqdarda "Pantsir-C1" zenith-raket kompleksini məhz BƏƏ vasitəsilə əldə edib.

# Şuşa Azərbaycanın və Qafqazın mədəni paytaxtına çevriləcək

**Prezident İlham Əliyev: "Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirəcəyik"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Biz Şuşanı dünyanın ən gözəl şəhərlərindən birinə çevirməliyik və çevirəcəyik. Mən bu sözü vermişəm və bu sözümü də icra edəcəyəm. Necə ki, əvvəlki dövrlərdə demişdim biz heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəyik və vermədik. Demişdim ki, Azərbaycan bayrağı Şuşada qaldırılacaq və qaldırıldı. SİA xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən söyləyib. Dövlətimizin başçısı deyib ki, əsas hədəf Qarabağın tacı olan Şuşa idi və noyabrın 8-də Azərbaycan bayrağı Şuşada qaldırıldı: "Ondan sonra düşmən diz çökdü, təslim oldu, ağ bayraq qaldırdı. Şuşanın azad olunması günü Zəfər günü elan edildi".

Azərbaycan Prezidenti Şuşa şəhəri - onun əhəmiyyəti, status, gələcəyi ilə bağlı tezisləri verib. Bəs Şuşa şəhərinin qədim və zəngin mədəniyyətimizin paytaxtı status nəyə əsaslanır, bu şəhərin dünya mədəniyyətində hansı yeri var və olacaq? Tarixçilər, etnoqraflar, kulturoloqlar bu məsələlərlə bağlı geniş araşdırmalar aparmalı, Şuşanın Azərbaycan və dünya mədəniyyəti üçün əhəmiyyətini, onun keçmişdə və gələcəkdə bu sahədə tutacağı yeri əsasınadırmalıdırlar.

Şuşa şəhərinin zəngin tarixi və mədəni irsə sahiblik etdiyini deyən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov isə Şuşanın tarixi və mədəniyyət şəhəri statusunu bərpa edilməsinin əsas prioritet olacağını deyir: "Tarixi mənbələrdə Şuşanın hətta XIII əsrdə də Azərbaycanın məşhur şəhərlərindən biri olması haqqında faktlar var. Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir.

Şəhərdə 17 məhəllə var idi ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olmuşdur. 1854-cü ildə şəhərdən cənubda, 18 kilometr aralı "Turşsu" deyilən səfalı guşədə mədən suyunun çıxması da alimlərin mülahizəsini doğrultdu. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınırdı.

Artıq XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının məlumatına görə, təkcə XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı təbəqəsi, Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışlar".

Sovet dövründə şəhərin inkişafı, onun iri mədəniyyət mərkəzinə, turizm mərkəzinə çevrilməsi üçün böyük işlər görülüb. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin 2-ci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Şəhər inkişaf edir, əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu güclənirdi. Ölkənin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə ümummilli lider tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır". Heydər Əliyevin bilavasitə səyləri nəticəsində, az sonra Şuşa şəhərini tarix-memarlıq qoruğu elan edən qərar qəbul olundu. Həmin illərdə ümummilli lider Heydər Əliyevin Dağlıq Qarabağa göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Ümummilli Lider Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərinə iştirak etdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu. Bununla yanaşı, Ulu Öndər Üzeyir bəy Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini də vermişdi. Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə Ümummilli Lider ziyalıları Dağlıq Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.



1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 500-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir.

Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd edib ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək deyib: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır". Dövlət başçısı vaxtilə Vaqif poeziya günlərinin ənənəvi olaraq keçirildiyini vurğulayaraq diqqətə çatdırıb ki, Şuşada Vaqif poeziya günləri və "Xarı bülbül" festivalı bərpa olunmalıdır".

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zaman gəldiyini diqqətə çatdıraraq deyib ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmiş, 28 il ərzində buna çalışmış lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi.

Prezident İlham Əliyev bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol verməK olmaz. Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir.

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

29 yanvar

QARABAĞ AZƏRBAYCANDIR!

## Messi oyundan sonra 20 dəqiqə meydanda qaldı




"Barselona"nın hücumçusu Lionel Messi İspaniya Kubokunda "Rayo Valyekano" ilə matçdan (2:1) sonra meydanı tez tərk etməyib. "Dairio Sport" xəbər verir ki, matçdan sonra demək olar ki, komandanın bütün futbolçuları tələsik paltardəyişmə otağına gediblər, argentinalı hücumçu isə stadionda qalıb.

33 yaşlı oyunçunun ən az 20 dəqiqə meydanda qaldığı və arenanın işçiləri ilə yaxından ünsiyyət qurduğu və onlarla söhbət etdi bildirilib. Bundan əlavə, o, hər kəslə şəkil çəkdirib. Messi tuneldən paltardəyişmə otağına getməyib, tribunalara qalxaraq birbaşa avtobusa yollanıb.

## Mourinyo: "Mən Kloppun dost deyiləm"

"Tottenhem"in baş məşqçisi Joze Mourinyo "Liverpul"un çalışdırıcısı Yurgen Kloppla münasibətlərindən danışıb. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, o, alman mütəxəssislə dost olmadığını deyib: "Mən Yurgenin dostu deyiləm, çünki onunla heç zaman vaxt keçirməmişəm. Bir insanı yaxşı tanıdığınız zaman deyə bilərsiniz: "Mən onu bəyənirəm, o mənim dostumdur." Və ya: "Mən onu sevmirəm, o mənim dostum deyil".

Yurgenlə matçdan əvvəl və ya görüş ərzində 5 dəq söhbətim olur. Onun haqqında söyləyə biləcəyim budur ki, hörmət etdiyim, heç bir problemim olmadığı həmkarımdır. Və düşünürəm ki, Klopp da mənim haqqımda eyni şeyi düşünür".



## Daban çatları: yaranması, müayinəsi və aradan qaldırılması yolları



Dabanlarda yaranan çatlar həm sağlamlıq, həm də estetik baxımdan arzu edilən deyil. Bəzən çatlar daha da dərinləşərək dözülməz ağrılara və yerişin dəyişilməsinə səbəb olur. Adətən dabanda çatlar ayaq üstə çox duran və çox gəzən şəxslərdə yaranır. Soyuq havalar və standartlara uyğun olmayan ayaqqabılar da bəzən dabanlarda çatların əmələ gəlməsinə səbəb olur. Lakin bütün bunlarla yanaşı, müəyyən xəstəliklər nəticəsində də çatlar əmələ gələ bilər.

Mərkəzi Gömrük Hospitalının həkim-dermatovenerologu Sevinc Kərimova deyib: "Dəri çatları avitaminozlardan, yəni vitamin çatışmazlığından tutmuş müxtəlif dəri xəstəliklərinə qədər çoxlu səbəblərdən yarana bilər. Əsasən daha çox pəncəaltı göbələk xəstəliyi zamanı ona rast gəlinir, bu zaman dabanların dərisi çatlayır və quruyur. Həmçinin ekzemada, ovuc və pəncəaltı psoriazda, müxtəlif dəri dermatozlarında quruluq və çatlar ola bilər.

Psoriaz, ekzema və göbələk xəstəliyini bir-birindən fərqləndirmək üçün həkimin müayinəsi vacibdir. Həmçinin diaqnozun təsdiq və ya inkarı üçün mikroskopik laborator müayinəsi quruluq və çatların səbəbini aydınlaşdırmağa kömək edir".

Dermatovenerologun verdiyi məlumata görə, daban dərisində yaranan xəstəlikləri adi gözlə də müəyyən etmək olar. "Adi gözlə müayinə edəndə dəri örtüyünün cizgilərində ağ ərp kimi zolaqlar görünür. Bu, göbələk əlamətidir. Lakin bütün hallarda dəridən götürülən nümunənin laborator müayinəsi ona daha dəqiq diaqnoz qoymağa imkan verir".

Mütəxəssisin dediyinə görə, dəqiq diaqnozdan sonra düzgün müalicə çox vacib məsələdir, çünki orqanizmdə yaranan narahatlıqlar hansısa ciddi bir xəstəlikdən xəbər verə bilər: "Avitaminozlar zamanı, kimyəvi vasitələrə həddən artıq çox toxunanda da dəri quruması baş verir, çatlar və qabıqlanmalar yaranır. Əgər həmin hallar avitaminoz səbəbindən baş verirsə, mütləq endokrinoloqun və ya qastreontroloqun müayinəsi lazımdır. Metabolizm pozuntuları zamanı da avitaminoz inkişaf edə bilər. Diaqnoz tam təsdiqlənəndən sonra müalicə taktikası seçilməlidir". Həkim onu da qeyd edib ki, dabanlara gündəlik qulluq çox vacibdir. Hər gün nəmləndirici kremlərdən və isti vannalardan mütləq istifadə edilməlidir ki, ayaq dərisində quruluğa və dabanlarda bərkiməyə imkan yaranmasın.

## İçərisində 17 min manat olan pulqabısını oğurlayan şəxs yaxalanıb

Bakıda şəhər sakininin pulqabısını oğurlayan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki,



yanvarın 23-də Xətai rayonu ərazisindəki marketlərin birindən Bakı şəhər sakini R.Vəlizadənin içərisində 17 min manat məbləğində pul və sənədlər olan pulqabısını oğurlamaqda şübhəli bilinən N.Sayadov rayon polis idarəsinin 34-cü polis şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Faktla bağlı araşdırmalar aparılır.

## Sinoptiklər xəbərdarlıq edirlər...

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə Bakıda və Abşeron yarımadasında yanvarın 28-i axşamdan 29-u gündüzədək şimal-qərb küləyi əsəcək, sürəti saniyədə 15-18 olacaq, arabir 20-23 metrədək güclənəcək.**



Xidmətdən AZƏRTAC-a bildiriblər ki, yanvarın 28-i axşamdan 29-u gündüzədək Azərbaycanın rayonlarında qərb küləyinin əsəcəyi, arabir saniyədə 20-25 metrədək güclənəcəyi, yanvarın 29-30-da bəzi şimal və qərb rayonlarında havanın yağıntılı olacağı, qar yağacağı gözlənilir.

## Ova cəhd edən şəxs cəzalandırılıb

**Şahdağ Milli Parkının əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı milli parkın İsmayıllı bölməsinin Talıstan meşəbəyliyi ərazisində ova cəhd edən şəxs saxlanılıb.**

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Səmədova AZƏRTAC-a bildirib ki, araşdırma zamanı brakonyerin İsmayıllı rayon sakini Habil Abasov olduğu müəyyənləşib. Faktla bağlı qanun pozucusu barəsində protokol tərtib edilib və qanunamüvafiq tədbir görülüb.



## ELAN

09.02.2021 tarixindən etibarən, "Nar"ın internet paketlərində dəyişiklik olacaq. Daha ətraflı məlumat üçün https://nar.az səhifəsinə keçid edə bilərsiniz".

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**